əqidə və hüquqi baxımdan islamda

# DÖNÜKLÜYÜN CƏZASI

Əbdülhamid əbu Süleyman

*Əbdülhəmid əbu Süleyman*

# Əqidə və hüquqi baxımdan islamda dönüklüyün cəzası

*Beynəlxalq İslam Fikri İnstitutu*

İDRAK

BAKI – 2014

"İdrak" İctimai Birliyi
AZ1100, Bakı ş., Bakı Universiteti MTK,
M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

**Əbdülhəmid əbu Süleyman**
Əqidə və hüquqi baxımdan islamda dönüklüyün cəzası / Tərcüməçi və redaktor, ön söz və şərhlərin müəllifi: fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov. Bakı: CBS, 2014, 56 səh.

*Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin icazəsi ilə nəşr olunur*
***(DK-297/Q)***

© "İdrak" İctimai Birliyi, 2014

*Mərhəmətli və Rəhimli Allahın adı ilə!*

İslam dinində insanın məqamı uca tutulmuşdur. Quran ayələrinin təhlili göstərir ki, insan bu dinə görə ehtiram və şərəf-izzət sahibidir. Şüurlu varlıq sayıldığından iradə azadlığı və ixtiyarilik, onun təbii "mülkiyyət"i hesab olunur. Hətta azadlıq ən müqəddəs dəyər sayılan imanda da istisna edilmir:

"...Kim istəyir inansın, kim də istəyir inanmasın..." (əl-Kəhf, 29).

İraqlı hüquqşünas M.Ş. Əhməd (1934) bildirir ki, "Azadlığın insanın insanlığındakı dəyərini heç kəs inkar etmir. İnsanın xeyir təbiəti ilə səsləşən fitrət dini islamın bu dəyərlə əksliyi mümkündürmü?!"[1]

İslamda etiqad, yaxud da iman dedikdə qənaətbəxşlik və xatircəmlik başa düşülür. Məlum məsələdir ki, vicdanı zorla nəyəsə inandırmaq qeyri-mümkündür. Deməli, imana çağırışda qənaətbəxş inandırma və arqumentli izahlar əsas üsul kimi nəzərə alınmalıdır. Görkəmli müfəssir İbn Kəsir (1301-1373) yazırdı:

"Müsəlmanlara görə iman dillə tələffüz edilən adi söz, yaxud da bədənlə icra edilən ayinlər deyildir; əksinə, onun əsasında qəlbin təsdiqi, xatircəmliyi və rahatlığı dayanır"[2].

---

[1] Məhəmməd Şərif Əhməd. İslama yeni baxış / tərcümə edən: Elvüsal Məmmədov. Bakı: "CBS Polygraphic Production" mətbəəsi, 2011, səh. 135.

[2] يوسف القرضاوي. غير المسلمين في المجتمع الاسلامي، بيروت: مؤسسة الرسالة، 1992، ص 19.

Misirli mütəfəkkir Məhəmməd Əmarə (1931) hesab edir ki, zorla qəbul etdirilmiş iman zahirdə möminlik ifadə etsə də, insanı küfrdən daha təhlükəli "xəstəliy"ə – münafiqliyə sürükləyir[1].

Müsəlman fikrində göstərilir ki, insan – şüurlu varlıq, Allahın göndərdiyi təlimlər də açıq-aydın olduğundan bu təlimləri məcburən qəbul etdirmək doğru deyildir. Məsələn, yuxarıda adını çəkdiyimiz təfsirçi alim Quranın "Dində heç bir məcburiyyət yoxdur" ayəsinin[2] izahında yazmışdı:

"Yəni, kiməsə islamı zorla qəbul etdirməyin. Çünki o (islam – E.M), açıq-aydındır, ondakı sübut və dəlillər də aşkardır. Bu səbəbdən islamın kiminsə onu zorla qəbul etməsinə ehtiyacı yoxdur"[3].

Təsadüfi deyildir ki, islamda etiqad azadlığının Qurandakı əsas arqumentlərindən biri olaraq təqdim olunan bu ayə bəzi qərbli müəlliflər tərəfindən "doğruluq və müdrikliyin təcəssümü" kimi xarakterizə edilmişdir.

İslamda etiqad azadlığının bütün tərəfləri ilə əks olunmağına baxmayaraq, bir sıra qərbli şərqşünaslar iddia edirlər ki, müsəlman hüququna görə mürtədlərin cəzalandırılması bu azadlıqla ziddiyyət əmələ gətirir. Onlar həm bir sıra dini mətnləri, həm tarixi faktları, həm də müsəlman fiqhində dönüklərin cəzalandırılmasını zəruri edən fitva və görüşləri sübut olaraq göstərirlər.

---

[1] محمد عمارة. الدولة الاسلامية بين العلمانية و السلطة الدينية، القاهرة: دار الشروق، 1988، ص. 96.

[2] "əl-Bəqərə" surəsi, 256-cı ayə.

[3] ابن كثير. تفسير القران العظيم، ج 1، ص 310

Biz görkəmli mütəfəkkir Əbdülhəmid əbu Süleymanın "**Əqidə və hüquqi baxımdan islamda dönüklüyün cəzası**" kitabına yazdığımız bu ön sözdə islamın inanc azadlığına verdiyi əhəmiyyəti göstərməklə yanaşı, etiqad azadlığının məhdudlaşdırılması kimi görünən dini mətnlərin obyektiv izahına və nəhayət, dönüklərin cəzalandırılması ilə bağlı tarixi faktların təhlilinə cəhd göstərmişik. Diqqətimizi cəlb edən məsələ dini mətnlərlə bir sıra tarixi faktların üst-üstə düşməməyidir. "Əgər islamda etiqad azadlığı vardırsa, onda nə üçün dönüklər cəzalandırılmışdır?" sualına münasib cavab tapmaq, düşünürük ki, bir sıra qaranlıq məqamlara aydınlıq gətirəcəkdir.

İlk növbədə qeyd edək ki, islam fikrində dönüklərin cəzalandırılmasının hüquqi arqumenti kimi, əsasən fiqhi ictihadlar çıxış etmişdir. Deyilməlidir ki, "fəqihlər öz dövrlərinin dili ilə danışmışlar. Onların gəldiyi yekdil qərar – konsensus da ("icma") bunun nəticəsidir. ...Onlar zamanın ruhu ilə səsləşsin deyə ayə və hədisləri yozmuşlar. Məqsədləri islamı düşmənlərindən müdafiə etmək olmuşdur"[1].

İslamın etiqad azadlığına münasibətini obyektiv şəkildə öyrənmək istəyiriksə, əvvəlcə bu dinin ana mənbələrinə – Quran və hədislərə nəzər salmalıyıq. Çünki hər hansı bir problemlə əlaqəli konkret ayə və hədislər mövcuddursa, islamın həmin problemə baxışını ayrı-ayrı fərdlərin subyektiv yanaşmaları əsasında müəyyənləşdirmək ciddi metodoloji səhv olardı.

Qurani-Kərimdə etiqad azadlığından açıq-aşkar bəhs edən onlarla ayə mövcuddur. Bu ayələrdə ifadə olunan fikirləri təxminən aşağıdakı kimi təsnif etmək olar:

---

[1] جمال البنا. حرية الفكر و الاعتقاد في الاسلام، القاهرة: دار الفكر الاسلامي، 1998، ص 4.

a. Mömin və ya kafir olmaq hər insanın öz işidir; kiminsə kənardan buna müdaxiləsi yolverilməzdir. Heç kəs insanları hər hansı bir inancı seçməyə məcbur edə bilməz[1].

b. Peyğəmbərlərin vəzifəsi müjdələmək və dini təlimləri çatdırmaqdır (təbliğ etməkdir). Onlar kimisə nəyəsə məcbur etmək səlahiyyətinə malik deyildirlər[2].

c) Hidayət (mömin etmək, doğru yola çıxarmaq) Allaha aid məsələdir və Onun iradəsinə uyğundur. Hətta peyğəmbərlər Allahın köməyi olmadan insanları hidayətə qovuşdurmaq gücünə sahib olmamışlar[3].

ç Dönüklüyə görə kimsə bu dünyada cəzalandırıla bilməz[4].

Ümumiyyətlə, Quranın etiqaddan bəhs edən ayələrinin təhlili göstərir ki, iman və küfr şəxsi məsələdir, heç kəsin, o cümlədən ictimai qurumların, eləcə də dövlətin buna müdaxiləsi yolverilməzdir; kim iman gətirsə, bunun ona ancaq xeyri olar, küfründə qalanlar isə özlərinə zərər etmişlər; vəhy alan, iman və küfr məsələlərinə hamıdan yaxşı bələd olan peyğəmbərlər belə yalnız təbliğ etmək səlahiyyətinə sahibdirlər; Məhəmməd peyğəmbər insanlara nəzarətçi və vəkil deyildir, əsas vəzifəsi müjdələmək, xəbərdar etmək, xatırlatmaq və çatdırmaqdır; hidayət Allahdandır, Peyğəmbər kimisə hidayətə çatdırmaq gü-

---

[1] Əlaqədar ayələr üçün bax: əl-Bəqərə, 256; Yunis, 108; əl-İsra, 15; əl-Kəhf, 29; ən-Nəml, 93; ər-Rum, 44; Fatir, 39; əz-Zumər, 41.

[2] Əlaqədar ayələr üçün bax: əl-Maidə, 99; əl-Ə`raf, 188; Yunis, 41; Hud, 12; ər-Rə`d, 40; əl-Hicr, 94; ən-Nəhl, 82; əl-Fürqan, 56-58; Qaf, 45; əz-Zariyat, 52-55; əş-Şura, 6; Əbəsə, 7; əl-Ğaşiyə, 22.

[3] Bax: əl-Bəqərə, 272; ən-Nisa, 88; Yunis, 99-100; əl-Qəsəs, 56; Fatir, 8.

[4] Bax: əl-Bəqərə, 108; Ali-İmran, 90; ən-Nisa, 137; əl-Maidə, 54; ət-Tövbə, 74; ən-Nəhl, 106; Muhəmməd, 25.

cünə sahib deyildir; müxtəliflik Allahın iradəsini əks etdirir; əgər Allah istəsəydi, bütün insanları eyni ümmət daxilində birləşdirərdi. Nəhayət, ayələrdə dindəndönmə haqda danışılsa da, dönüklərin dünyada cəzalandırılması barədə heç nə deyilmir.

Göründüyü kimi, Quranda etiqad azadlığının nəzəri aspektlərinin əks olunduğu konkret göstərişlər vardır.

Bəzi fəqihlər etiqad azadlığından bəhs edən bu ayələrin öz legitimliyini itirdiyini ("nəsx" edildiyini) iddia edirlər. Təbii ki, bu iddia Quranın universallığı, ondakı təlimlərin həmişəyaşarlığı, zaman və məkanın föqvündə dayanmağı ilə ziddiyyət əmələ gətirir:

"Bu elə bir iddiadır ki, zərrə qədər ağlı olan kəs onu rədd edəcəkdir. Əgər həmin ayələr qüvvədən düşmüşdürsə, onları Quranda saxlamağın nə mənası var idi ki?! Ümumiyyətlə, "nəsx" məsələsinin heç bir əsası yoxdur"[1].

Habelə bu iddia "nəsx" əməliyyatının fəlsəfəsi ilə üst-üstə düşmür:

"...(Bu) ayələrin "qılınc" ayələri ilə qüvvədən salındığını (***nəsx***) iddia etmək doğru deyildir. Həm də bu ayələrdə "xəbərvermə" (***ixbar***) vardır. Üsulşünaslara görə, "ixbar" nəsx edilə bilməz. Bir də ki nəsx – Quranda mövcudluğu zəruri hesab edilsə belə – ya daha faydalı, daha xeyirli, ya da oxşar hökm üçün əvvəlki hökmün qüvvədən salınması deməkdir. Elə isə qətlin sülhdən, əmin-amanlıqdan üstünlüyünü iddia etmək ağılsızlıq olmazdımı?! Yaxud da zor (məcburiyyət) nə vaxtdan sonra azadlıqdan üstün sayılıb?!"[2]

---

[1] جمال البنا. حرية الفكر و الاعتقاد في الاسلام، القاهرة: دار الفكر الاسلامي، 1998، ص 18.

[2] Məhəmməd Şərif Əhməd. İslama yeni baxış / tərcümə edən: Elvüsal Məm-

Bir sözlə, islam alimlərinin böyük əksəriyyəti etiqad azadlığından bəhs edən ayələrin nəsx edildiyi iddiasını qeyri-məqbul sayır[1].

İslamın etiqad azadlığına düşmən kəsildiyini, zorakılıq və məcburiyyət dini olduğunu iddia edən qərəzli nöqteyi-nəzərin əsaslandırılması zamanı, yuxarıda qeyd etdiyimiz kimi, bəzi hədislər və tarixi faktlar göstərilir. Məsələn, "Dinini dəyişəni öldürün" hədisi məlum qərəzli iddianın irəli sürülməsində arqument rolunu oynayan başlıca dini mətndir. Belə ki İslam fikrində dönüklüyün hüquqi aspektlərinin işlənib-hazırlanmasında dini mətn baxımından məhz bu hədis əsas götürülmüşdür. Amma bu hədis həm etiqad azadlığına çağıran Quran ayələri ilə ziddiyyət təşkil etdiyindən, həm də problemə aydınlıq gətirən digər hədislərlə konkret məzmun kəsb etdiyindən hökm çıxarmada yeganə arqument olmaq statusunu itirir.

Hədisdəki ümumi məzmunu digər hədislərlə konkretləşdirmək də mümkündür. Çünki söhbətin hansı şəraitdən, dönüklüyün hansı formasından getdiyini müəyyənləşdirmək məlum hədisin başa düşülməsini asanlaşdıracaqdır. Məsələn, başqa bir hədisdə göstərilmişdir ki, müsəlmanı yalnız üç halda: a) ərli qadınla zina edərsə; b) başqa müsəlmanı nahaq yerə öldürərsə; c) dinindən dönərək camaatı parçalayarsa, cəzalandırmaq lazımdır. Deməli, hədisdə söhbət bütün dönüklərin deyil, həm dindən dönən, həm də müsəlman icmasını parçalayan dönüklərin cəzalandırılmasından gedir.

mədov. Bakı: "CBS Polygraphic Production" mətbəəsi, 2011, səh. 137.

[1] Ətraflı məlumat üçün bax: الامام يوسف القرضاوي. فقه الجهاد: دراسة مقارنة لأحكامه و فلسفته في القران و السنة، في مجلدين، القاهرة: مكتبة وهبة، ج 1، ص 285-335

Bəzi müəlliflərə görə, hədisdəki əmr mürtədlərə münasibətdə islamın qəti mövqeyini deyil, müəyyən tarixi şəraitlə əlaqədar komandanlıq qərarını əks etdirir[1].

Başqa yanaşmada isə (Ə. Mərzuq, M. H. Zəqəzrəq və digərləri) qeyd olunur ki, hədisdə müharibəyə hazırlıq dövründə dinini dəyişərək müsəlmanların hərbi düşərgəsindən düşmən düşərgəsinə keçən dönüklərdən söhbət gedir[2].

İraqlı alim M. Ş. Əhmədə görə, bu hədisi ümumi təbliğ və vəhy ifadə edən dini mətn kimi deyil, müəyyən tarixi şəraitlə əlaqəli siyasi qərar kimi nəzərdən keçirmək lazımdır:

"...Hesab edirik ki, dönüklüyə aid hökmlər müvəqqəti siyasi hökmlər qəbilindəndir. O siyasi hökmlər ki, vaxtı ilə cəmiyyətdəki siyasi abı-havaya müvafiq olaraq çıxarılıb. Yəni, həmin vaxt din vətəndaş birliyinin göstəricisi, islam dövlətinə sədaqətin əsas meyarı idi. Odur ki dindən dönmək dövlətə qarşı çıxmaq, ona sadiqlik vəhdətini pozmaq mənasına gəlirdi. Bu nöqteyi-nəzərdən dönüklük sistemə qarşı qiyam demək idi"[3].

Deməli, "Mürtədləri öldürün" hədisi mövcud siyasi abı-havanı əks etdirir. İstər erkən islam dövründə, istərsə də sonralar din vətəndaş birliyini şərtləndirir, siyasi bağlılığın başlıca me-

---

[1] Məhəmməd Şərif Əhməd. İslama yeni baxış / tərcümə edən: Elvüsal Məmmədov. Bakı: "CBS Polygraphic Production" mətbəəsi, 2011, səh. 35-38.

[2] احمد شلبي، أحمد عمرهاشم، أحمد كمال ابو مجد. الإسلام بين الحقيقة والادعاء: رد على أهم الافتراءات المثارة ضد الإسلام، لشركة المتحدة للطباعة والنشر، القاهرة، 1996، ص 85.

[3] Məhəmməd Şərif Əhməd. İslama yeni baxış / tərcümə edən: Elvüsal Məmmədov. Bakı: "CBS Polygraphic Production" mətbəəsi, 2011, səh. 37.

yarı olaraq nəzərdən keçirilirdi; dindən dönmək dövlətə qarşı çıxıb, siyasi əhdnaməni pozmaq mənasına gəldiyindən dönüklük sistem əleyhinə qiyam kimi qiymətləndirilirdi.

Bu məqamda ona da diqqət edilməlidir ki, həmin hədis Mədinə İslam dövləti ilə Məkkədəki Qüreyş hakimiyyəti arasında istər hərbi toqquşmaların, istərsə də siyasi gərginliyin davam etdiyi dövrdə meydana çıxmışdır. Həmçinin, bu hədisdəki əmri dindən dönənlərin qarşı cəbhəyə keçib, müsəlmanlar əleyhinə hərbi kampaniyalarda iştirak etmələri qarşısında Mədinə dövlətinin təbii müdafiə aktı olaraq qiymətləndirmək mümkündür.

Təbii ki, barəsində danışdığımız hədisin mövcudluğunu heç kəs inkar etmir və onunla bağlı izahlar, bəlkə də, subyektiv görünür. Amma Peyğəmbər dövrünə aid elə tarixi faktlara rast gəlirik ki, həmin hədisin mütləq hökm olmağını sual altında qoyur. İslam tarixi göstərir ki, Peyğəmbər heç də bütün mürtədlik vəziyyətlərində cəzalandırma yoluna əl atmamışdır. Deməli, mürtədlərin cəzalandırılması müəyyən siyasi şəraitlə əlaqəli olmuşdur. Həzrəti Məhəmmədin islama çağırma üslubu könüllülük, dözümlülük və qənaətbəxş inandırma ilə səciyyələnirdi. Onun etiqad azadlığına münasibəti bütün aydınlığı ilə aşağıdakı faktlardan görünür:

a. Peyğəmbər 632-ci ildə Mədinəyə hicrət etdikdə orada yaşayan yəhudiləri islam dinini qəbul etməyə məcbur etməmiş, əksinə, onlarla "Mədinə sənədi" adlandırılan tarixi müqaviləni bağlamışdır. Müqavilənin mətnində nəinki yəhudilərin dini etiqad hüquqları göstərilmiş, həm də onlar müsəlmanların da

daxil olduğu "Mədinə ümməti"nin mənsubları hesab olunmuşdular[1].

b. Mədinədə elə nəsil və ailələr vardı ki, cəmiyyət arasında iqtisadi və siyasi cəhətdən nüfuz sahibi idilər. Onlar mövcud vəziyyəti dəyişən, siyasi avtoritetliklərinə zərbə vuran yeni dini – islamı müsbət qarşılamamışdılar. Belə nüfuzlu şəxslərdən biri də Mədinədəki Xəzrəc qəbiləsinin başçısı Abdullah ibn Übey idi. Şəhərdə hakimiyyətin Peyğəmbərin əlinə keçməsi, qəbilələrin onun ətrafında toplanması, bununla da, müsəlmanların nüfuzunun artması Abdullah ibn Übeylə yəhudilərin gizli işbirliyinə səbəb olmuşdu. İş o yerə çatmışdı ki, 624-cü ildə baş vermiş Uhud döyüşündən qabaq Abdullah öz dəstələrini ümumi qoşundan ayıraraq müsəlmanlara xəyanət etmişdi. Quran onları "(əvvəlcə) iman gətirib sonra kafir olan, sonra iman gətirib yenə kafir olan, sonra da küfrünü artıranlar"[2], "küfr sözünü deyən, islamı (zahirən) qəbul etdikdən sonra kafir olanlar"[3] – deyə xarakterizə edir və bildirir ki, onların üzrxahlığı qəbul olunmayacaqdır[4].

Bu ayələrdə həmin şəxslərin dindən dönmələri haqda açıq-aşkar məlumat vardır. Buna baxmayaraq, Peyğəmbər onları dönüklüklərinə görə cəzalandırmamışdır.

v. Peyğəmbərin zamanında baş vermiş konkret dindəndönmə hallarının heç birində cəzalandırma faktına rast gəlinmir.

[1] Məhəmməd Xəlifə Həsən. Dialoq mədəniyyəti və metodologiyası / tərcümə edən: Elvüsal Məmmədov. Bakı: "CBS Polygraphic Production" mətbəəsi, 2011, səh. 67.

[2] "ən-Nisa" surəsi, 137-ci ayə.

[3] "ət-Tövbə" surəsi, 74-cü ayə.

[4] "ət-Tövbə" surəsi, 66-cı ayə.

Hərdən elə olurdu ki, bəzi müsəlmanlar qrup və ya fərd halında islamdan imtina etmişdilər. Onların arasında nəinki bir, hətta bir neçə dəfə dindən dönmüş şəxslərə də rast gəlinir. Bəzi faktlara toxunaq. Məhəmməd peyğəmbərin vəhy katiblərindən hesab olunan Mərvan ibn Həkəm dindən dönərək Mədinədən Məkkəyə qaçsa da, cəzalandırılmamış, əksinə, onu bağışlamaq xahişi Peyğəmbər tərəfindən qəbul edilmişdir. Mədinədə ikən on iki müsəlman, o cümlədən Haris ibn Süveyd əl-Ənsari dindən dönərək Məkkəyə qayıtmışdılar. Lakin Peyğəmbər onların öldürülməsi haqda qərar çıxarmamış və baş verənlər Quranda öz əksini bu cür tapmışdı: “Kim islamdan başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!”[1] Həbəşistana 611-ci ildə hicrət etmiş ilk müsəlman dəstədən Übeydullah ibn Cəhş adlı müsəlman orada xristianlığı qəbul etsə də, Peyğəmbər Həbəş kralı Nəcaşidən onun təslim edilməsini tələb etməmişdir. Həmçinin, övladları xristianlığı qəbul etmiş atanın “Dua et, ey Allahın rəsulu, onlar cəhənnəmə düşsünlər” xahişini yerinə yetirməmiş, “Dində məcburiyyət yoxdur” ayəsini oxumaqla kifayətlənmişdi[2].

Bütün bu faktlar göstərir ki, Məhəmməd peyğəmbərin zamanında dindən dönənlərə cəza tətbiq olunmamışdır.

Dedik ki, dönüklərin cəzalandırılması ilə əlaqəli fiqhi hökmlər işlənib hazırlanmışdır. Ümumiyyətlə, araşdırmalar göstərir ki, müsəlman fiqhinin mürtədliklə bağlı hüquqi aspektləri:

---

[1] “Ali-İmran” surəsi, 85-ci ayə.

[2] Ətraflı məlumat üçün bax: جمال البنا. حرية الفكر و الاعتقاد في الاسلام، القاهرة: دار الفكر الاسلامي، 1998، ص 20-23.

a) Quranın heç bir qəti ayəsinə deyil, zənn ifadə edən "ahad" hədislərə əsaslanır;

b) Hicri eranın ilk əsrlərində fəqihlərin ictihadları əsasında təsis edilib;

c) Tarixi faktlar (presedentlər) dönüklüyün hüquqi tərəflərini işləyib hazırlayan fəqihlərin əsaslandığı dəlil rolunu oynayıb[1].

Yuxarıda bildirmişdik ki, mürtədlik probleminin hüquqi tərəflərini təsis edərkən müsəlman hüquqşünasları arqument olaraq, həm də tarixi faktları əsas götürmüşdülər. Başlıca tarixi fakt kimi ilk Raşidi xəlifə Əbubəkr əs-Siddiqin (632-634) hakimiyyəti zamanı dindən dönənlərin cəzalandırılması göstərilmişdir. Amma bu tarixi fakt özündə mürtədlərin cəzalandırılmasına əsas verəcək heç bir ciddi arqumenti ehtiva etmir. Çünki həmin müharibəni başladan tərəf kimi Əbubəkr deyil, mövcud siyasi vəziyyətdən öz maraqları üçün istifadə etməyə çalışan bəzi ərəb qəbilələri çıxış etmişdilər. Onlar Məhəmməd peyğəmbərin vəfatından sonra yeni hakimiyyətə həm zəkat ödəməkdən, həm də tabe olmaqdan imtina etmiş, Mədinəyə hücum etməyi planlaşdırmışdılar. Xəlifə Əbubəkr həm bu qəbilələri zəkat verməyə məcbur etmək, həm də Mədinəni mümkün hücumdan qorumaq üçün onlarla müharibə etməli olmuşdu[2]. Deyilməlidir ki, müharibə "dönükləri haqqa qaytarmaq" şüarı adı altında aparılmırdı. Çünki bu qəbilələrin

---

[1] Bax: Məhəmməd Şərif Əhməd. İslama yeni baxış / tərcümə edən: Elvüsal Məmmədov. Bakı: "CBS Polygraphic Production" mətbəəsi, 2011, səh. 35-37.

[2] طه جابر العلواني. أدب الاختلاف في الاسلام، بيروت: الدار العربية للعلوم، 2005، ص 58.

əksəriyyəti dönük deyildilər, əksinə, zəkat vermək istəmirdilər. Bəzi səhabələrin, o cümlədən Ömər ibn əl-Xəttabın xəlifəyə etiraz edərək onu müsəlmanlarla vuruşmaqdan çəkindirmək istəməsi də buna dəlalət edir. Xəlifə də onlara cavabında həmin qəbilələrlə zəkat vermək istəmədikləri üçün müharibə etdiyini bildirmişdi[1].

Deməli, xəlifənin dönüklərlə müharibəsi onların islam dövlətinə zəkat verməkdən boyun qaçırıb, Mədinəyə hücum etmək istəmələri ilə əlaqəli olduğundan etiqad müharibəsi hesab edilməməlidir.

Nəticə etibarı ilə, islam etiqad azadlığına bütün qapıları açmış, insanın iradəsinə, şəxsi seçiminə ehtiramla yanaşmışdır. Dönüklərin cəzalandırılması isə şərait və vəziyyətə görə dəyişən siyasi məsələdir. Həm bir sıra dini mətnlərin, həm də bəzi tarixi faktların siyasi məzmunu müsəlmanların birliyi və gücünə dönüklüyün təsiri çərçivəsində başa düşülməli, etiqad azadlığının məhdudlaşdırılması baxımından nəzərdən keçirilməməlidir.

---

[1] Məsələn, hədis alimlərindən Buxari yazırdı: "Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* vəfat etdikdən sonra Əbubəkr *(Allah ondan razı qalsın!)* xəlifə oldu. Ərəblərdən kafir olanı kafir oldu. (Xəlifə onlarla savaşmaq qərarına gəldikdə) Ömər dedi: "Sən insanlarla necə ola bilər ki, savaşmaq istəyirsən?! Axı Allahın rəsulu *(Ona Allahın xeyir-duası və salamı olsun!)* deyib: "İnsanlar "Allahdan başqa ilah yoxdur" – deyənədək mənə onlarla savaşmaq əmr olundu. Kim: "lə ilahə illəllah", – deyərsə, islamın haqqı istisna olmaqla, canı da, malı da toxunulmazdır və onun hesaba çəkilməsi yalnız Allah Təalaya aiddir." Əbubəkr dedi: "Allaha and olsun ki, namaz və zəkat arasında fərq qoyanlarla savaşacağam. Çünki zəkat var-dövlətə görə alınan haqdır. Allaha and olsun ki, onlar Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* verdikləri dəvə kəndirini mənə verməzlərsə, vermədikləri üçün onlarla savaşacağam" Bax: الامام البخاري. الجامع الصحيح مع شرح فتح الباري، ج 3، ص 211.

Əziz oxucu! Belə bir aktual mövzu diqqətimizi cəlb etdiyindən görkəmli mütəfəkkir Əbdülhəmid əbu Süleymanın "Əqidə və hüquqi baxımdan islamda dönüklüyün cəzası" kitabını tərcümə etmək qərarına gəldik. Ümid edirik ki, müəllifin mövzuya ənənədən kənar yanaşması, real və obyektiv şəkildə problemi təhlil edib səmərəli nəticələrlə çıxış etməsi sizlərin marağına səbəb olacaqdır.

**Elvüsal Məmmədov**
*AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı, fəlsəfə üzrə fəlsəfə doktoru, dinşünas*

# DÖNÜKLÜYÜN CƏZASI

Qurani-Kərimdə islam hüququnun "hədd" adlandırdığı cəza növlərindən söz açılır. Buraya oğurluğa, zinaya, adam öldürməyə, quldurluğa, yer üzündə fitnə-fəsad çıxarmağa görə verilən cəzalar daxildir. Maraqlıdır ki, dönüklük dinin əsasını təşkil edən əqidə mövzularından hesab olunsa da, Quranda onun cəzası haqda heç nə deyilmir. Hətta sui-qəsdçilik fəaliyyəti ilə müşayiət olunan müəyyən dönüklük vəziyyətlərindən (məsələn, müsəlmanlar arasında fitnə-fəsad yaransın deyə bir qrup yəhudi əvvəlcə müsəlman olmuş, sonra dindən döndüklərini elan etmişdilər[1]) bəhs edən ayələrdə mürtədlərə veriləcək cəzaya toxunulmur.

Quranda bu məsələ ilə əlaqədar olaraq, ancaq və ancaq axirət cəzası haqda danışılır.

Sui-qəsdçi dönüklərin cəzalandırılmasına gəlincə, Peyğəmbər bir dövlət başçısı olaraq bu qərarı vermişdir. Çünki bu vəziyyətdə dönüklük iman və küfr məsələsi olmayıb, möminlər arasında fitnə-fəsad çıxarmağa xidmət edən sui-qəsd hərəkəti idi[2].

---

[1] Bu barədə Quranda deyilir: "Kitab əhlindən (yəhudilərdən) bir dəstə (bir-birinə) dedi: "Möminlərə nazil edilənə (Qurana) günün əvvəlində (səhər vaxtı) inanın, həmin günün axırında (axşam vaxtı) isə onu inkar edin! Bəlkə, (möminlər öz dinlərindən) üz döndərsinlər" (Ali-İmran, 72).

[2] Bax: Quran, II, 217, 256; III, 85-91, 100, 117; V, 54; IV, 137; XVI, 106-110.

Müşahidə edirik ki, Qurani-Kərim əqidə mövzusunda, bunun əksinə olaraq, bir çox ayədə etiqad (inanc) azadlığından danışır, hər hansı bir inancın seçilməsində məcburiyyətin yolverilməzliyini vurğulayır. Onu da görürük ki, Peyğəmbər praktikasında bu prinsipin əməli tətbiqi öz əksini tapıb.

Mədinədə yəhudilərin Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* və islam dövlətinə qarşı müharibəyə başlamalarına baxmayaraq, müsəlman tərəfi, güclü olduğu halda, onları islamı qəbul etməyə məcbur etməmişdi. Sonrakı illərdə heç İslam dövləti də yəhudilər, habelə Ərəbistan xristianları əleyhinə belə bir siyasət yürütməmişdi. Əksinə, Allahın rəsulu *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Nəcran xristianlarını Mədinəyə dəvət etmiş, məscidində onlarla gözəl şəkildə dialoq aparmışdı. Bu zaman nə onların inancları əleyhinə bir təhqiramiz söz işlədilmiş, nə də onlar hansı isə zorakılığa məcbur qalmışdılar; Allah və peyğəmbəri onları himayəyə götürmüşdü. Müsəlmanlara tövsiyə olunmuşdu ki, sövməələrdəki (monastırlardakı) rahiblərə toxunmasınlar, Misirdəki qiptilərlə yaxşı davransınlar.

Məsələ bununla bitmir; Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* müsəlmanlara tövsiyə etmişdi ki, fars mədəniyyətinin mənsubları hesab olunan atəşpərəstlərə inanc azadlığı baxımından Kitab əhlində olduğu kimi münasibət bəsləsinlər. Halbuki atəşpərəstlər Tövrat və İncilə inanmırdılar. Peyğəmbərimiz *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bu haqda demişdi: "Onlarla (atəşpərəstlərlə) Kitab əhlinə olduğu kimi davranın. Lakin qadınları ilə evlənməyin, kəsdiklərini yeməyin"[1].

---

[1] Hədisi "Müvətta" kitabında İmam Malik, eləcə də İmam Buxari və Beyhəqi rəvayət etmişlər. Əbu Sövr İbrahim ibn Xalid əl-Kəlbi istisna olmaqla

Çünki atəşpərəstlər hərfi deyil, geniş mənada "Kitab əhli" hesab olunurlar. Geniş mənada "Kitab" dedikdə mədəniyyət başa düşülür. Yəni, atəşpərəstlər yəhudi və xristianlar kimi bəşəri-mədəni əhliyyətə sahib idilər ki, bu da onlara seçim hüququ vermişdi. Bəlkə də, atəşpərəstlik və digər mədəniyyətlər əvvəllər mövcud olmuş tarixi peyğəmbərliklərin "məhsul"u və ya "əsər-əlamət"idir. Bu peyğəmbərliklər ya təhrif olunmuş, ya qüvvədən salınmış ("nəsx" olunmuş), ya da itib-batmışdır. Pak və Uca Allah Quranda "peyğəmbərlər" və "peyğəmbərliklər"dən, "kitablar"dan, beləcə, geniş mənada mədəniyyətlərdən danışır:

"(Biz) peyğəmbərlər (göndərdik). Onların bəzisinin əhvalatını bundan əvvəl sənə danışdıq, bəzisinin əhvalatını isə söyləmədik..." (ən-Nisa,).

Ola bilsin ki, keçmişdə islam dəvətinin induizm və digər cənubi-şərqi Asiya dinlərinə (buddizm, konfutsiçilik) məhdud təsiri müsəlmanların həmin dinlərin mənsublarına dini və sosial sahədə bədəvi-bütpərəst gözü ilə baxmaqları ilə əlaqəlidir. Halbuki bu coğrafiyanın böyük hissəsi müsəlman hökmdarların tabeliyində olmuşdur. Müsəlmanlar ərəb bütpərəstlərə necə

---

bütün alimlər bu məsələdə həmrəydirlər. Sonuncu, İmam Şafei və İmam Əhmədin tələbələrindən olmuşdur. O deyirdi: "Onların qadınları ilə evlənmək, kəsdiklərini də yemək caizdir". Onların kəsdiklərini yeməmək qadağası, bəlkə də, ona görədir ki, ya heyvanları Allahdan qeyrisinə kəsirmişlər, ya da qanlarını axıtmırmışlar. Atəşpərəstlər oda qurban verdikləri üçün qurbanları Allahdan qeyrisinə kəsilmiş hesab olunurdu: "O (Allah) sizə ölmüş heyvanı, (axar) qanı, donuz ətini və Allahdan başqasının adı ilə (bütlərin və s. adı ilə) kəsilənləri (yeməyi) qəti haram etmişdir..." (əl-Bəqərə, 173). Qadınları ilə evlənməmək məsələsinə gəlincə, məlumdur ki, batini təlimlər, xüsusən də maniçilikdə sərbəst cinsi əlaqəyə icazə verilmişdi.

münasibət bəsləyirdilərsə, bu dinlərin davamçılarına da elə münasibət bəsləyirdilər. Bu ona görə idi ki, islam dini və dövlətinin ərəb müşriklərinə münasibətini ifadə edən müstəsna tarixi vəziyyət (cəhət) nəzərdən qaçırılmışdı. Və bu hal həm də başqa səbəblərdən, Quranda söz açılmayan başqa mədəniyyətlərin ("Kitab" mədəniyyətlərinin) mənsublarına şamil edilməməli idi. Xüsusilə də Hindistanda Moğol hakimiyyəti yerlilərə bu cür münasibət bəsləmişdir. Bütün bunlar həmin xalqların böyük hissəsinin nə üçün öz xurafatçı dinlərində qaldıqlarını, bəlkə də, bizə izah edir. İsti münasibətin (qaynayıb-qarışmanın) olmamağı bu dinlərin mənsublarının böyük hissəsində psixoloji və sosial özünütəcrid formalaşdırmışdı. İslamı qəbul edən, Hindistanı və bır sıra müsəlman ölkələrini ələ keçirən moğollardan gördükləri zülmün də buna təsiri olmuşdur.

Əgər biz dönüklük mövzusunu Quran əsasında hərtərəfli nəzərdən keçirsək, məlum olacaqdır ki, nə dönüklük probleminin, nə də Quranda göstərilmiş "dönüklük sui-qəsdi"nin inanc və etiqad azadlığı ilə, islam və ya digər inanclarla əlaqəsi yoxdur. Elə buna görə də, Quranda söz açılan "sui-qəsdçi dönüklər"i cəzalandırmaq haqda Peyğəmbərin əmri islamın insanlara verdiyi din (inanc) seçmək hüququ ilə ziddiyyət əmələ gətirmir:

"Dində heç bir məcburiyyət yoxdur" (əl-Bəqərə, 256);

"Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?! (Bu sənin işin deyildir. Sənin vəzifən ancaq islamı təbliğ etməkdir)" (Yunis, 99);

"(Ya Rəsulum!) İnsanları doğru yola yönəltmək sənin borcun deyildir. (Sənin vəzifən ancaq onları haqq yola dəvət etmək-

dir). Allah kimi istərsə, onu doğru yola yönəldər...” (əl-Bəqərə, 272)[1].

Çünki problem müsəlman cəmiyyətində fitnə-fəsad, qarışıqlıq çıxarmaq məqsədi güdən sui-qəsdlərlə, siyasi fəaliyyətlə əlaqəlidir. Söhbət inanc dönüklüyündən getmir, odur ki dönüklük zamanı cəzalandırma əqidə məsələsi hesab olunmur.

Dönüklük mövzusundakı qarmaqarışıqlıq və fiqhdəki “dönüklərin cəzalandırılması” hökmü, fikrimizcə, Quranın və Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* ərəb müşriklərinə yanaşma tərzini başa düşməməkdən irəli gəlir. Yəni, onların vəziyyəti müstəsna idi; bu üzdən seçim qarşısında qalmışdılar: ya islam, ya da müharibə![2] Fəqihlər bunu “dönüklük” adlandırılması mümkün olan ümumi hal saydılar; bu fakt müəyyən situasiyalarda, dinə qayıtmaq üçün bəzi dönüklərə təzyiqin göstərilməsinə icazə verən presedent rolunu oynadı.

Bir çox alim hesab etmişdir ki, ərəb müşriklərinə münasibəti əks etdirən “qılınc” ayəsi etiqad azadlığından, qeyri-müsəlmanlarla tolerant davranmaqdan bəhs edən digər ayələrlə “nəsx” olunub (qüvvədən salınıb). Onlar bəzi dini mətnlərin bir-birinə “əksliy”ini “nəsx” ideyası ilə formal şəkildə aradan qaldırmışdılar. Onlar nəzərdən qaçırırlar ki, hər bir quran ayəsi müəyyən vəziyyətlə əlaqəlidir. Bəzi alimlər haqlı olaraq göstərirlər ki, Quranda “nəsx”ə dair deyilənlər islam missiyası ilə, Quranın tamamlayıcılığı ilə, əvvəlki təhrif olunmuş şəriətləri

---

[1] Həmçinin bax: Quran, XVI, 125; XXXXVII, 32-35; XXIII, 107; XIII, 40; VI, 107.

[2] Ətraflı məlumat üçün bax: Beynəlxalq münasibətlərdə islam nəzəriyyəsi: islam fikri və metodologiyasının yeni istiqamətləri. Beynəlxalq İslam Fikri İnstitutunun (ABŞ) nəşrləri, 1986.

qüvvədən salmağı ilə, bu şəriətlərin endirildiyi millətlərlə, bəşər tarixinin keçmiş inkişaf mərhələləri ilə əlaqəlidir; həmin mərhələlər keçmişdə qalmışdır və əbədi, universal islam missiyası mərhələsindən fərqlənir. İslam missiyası bütün vəziyyətlərə istiqamət verir, zaman və məkan müxtəlifliyinin doğurduğu inkişafla səsləşir.

"(Ya rəsulum!) Biz (Quranı) sənə haqq olaraq, özündən əvvəlki kitabı (bütün ilahi kitabları) təsdiq edən və onu qoruyan (və ya onların doğruluğuna şahid) olaraq endirdik..." (əl-Maidə, 48).

Bu səbəbdən diqqətə alınmalıdır ki, islam, hər şeydən əvvəl, bütün dövr və coğrafiyalarda yaşayan insanları doğru yola yönəltmək çağırışıdır. Odur ki islamın müraciəti universaldır, hər kəsədir; müəyyən zümrələrə, dil və irq mənsublarına yönəlmiş deyildir. Deməli, Quran bütün vəziyyətlərdə insana xitab edir, onun mədəni-bəşəri əhliyyəti və məsuliyyətini əsas götürür. Elə isə tədqiqatçılar nəzərə almalıdırlar ki, islamdan əvvəlki dövrdə bütpərəst ərəb müşriklərin, bədəvi qəbilələrin vəziyyəti müstəsnadır, ətrafdakı xalqların vəziyyətinə oxşamır. Söhbət mədəniyyət qurmuş, kitab verilmiş xalqlardan gedir. Həmçinin bu bədəvi, cahil qəbilələrin problemi etiqad və din azadlığı problemi də deyildir; problem mədəni-bəşəri naqislik və sosial-bəşəri və mədəni əhliyyətin olmamağı problemidir.

"(Qənimət əldə etmək iştahası ilə islama daxil olan) bədəvi ərəblər: "Biz iman gətirdik!" – dedilər. (Ya Peyğəmbər! Onlara) de: "Siz (qəlbən) iman gətirmədiniz! Ancaq: "Biz islamı (müəyyən şəxsi məqsəd, mənfəət naminə) qəbul etdik!" – deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır (çünki iman

əməllə etiqadın vəhdəti, islamı qəbul etmək isə yalnız zahiri əməl deməkdir)…" (əl-Hucurat, 14);

"Bədəvilər küfr və nifaq baxımından daha pis (qəliz) və Allahın öz Peyğəmbərinə nazil etdiyi hökmləri (cahillikləri üzündən) bilməməyə (başa düşməməyə) daha layiqdirlər. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!

Bədəvilər içərisində elələri vardır ki, (Allah yolunda) xərclədiklərini ziyan sayar və (bundan xilas olmaq üçün) başınıza bəlalar (münasibətlər) gəlməsini gözləyərlər. (Möminlərə arzu etdikləri) bəla (müsibət) öz başlarına gəlsin! Allah (hər şeyi) eşidəndir, biləndir!

Bədəvilər içərisində elələri də vardır ki, Allaha, axirət gününə inanır, xərclədiklərini Allaha yaxınlıq və Peyğəmbərin dualarına nail olmaq üçün vəsilə sayırlar. Bilin ki, bu onlar üçün (Allaha) yaxınlaşmağa bir səbəbdir. Allah onları Öz mərhəmətinə nail edəcəkdir. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!" (ət-Tövbə, 97-99);

"...O biri qisminiz isə ...Allaha qarşı haqsız yerə, cahiliyyətə xas olan düşüncələrə qapıldılar..." (Ali-İmran, 154);

"Onlar Cahiliyyət dövrünün hökmünümü istəyirlər? Tam qənaət sahibi olan bir camaat üçün Allahdan daha yaxşı hökm verə bilən kimdir?!" (əl-Maidə, 50);

"Kafirlər öz ürəklərində Cahiliyyət təkəbbürü təəssübünə qapıldıqları zaman Allah Peyğəmbərinə və möminlərə öz dərgahından arxayınlıq (qəlb rahatlığı, mənəvi möhkəmlik) göndərmiş və onlara təqva gəlməsini xas etmişdi…" (əl-Fəth, 26);

"Evlərinizdə qərar tutun. İlkin Cahiliyyat dövründəki kimi açıq-saçıq olmayın. (Bər-bəzəyinizi taxaraq evdən çıxıb özünüzü, gözəlliyinizi yad kişilərə göstərməyin!)..." (əl-Əhzab, 33).

Elə isə biz Allahın: a) bədəvi ərəblərə; b) Quranın şagirdlərinə; c) digər mədəniyyət və kitab mənsublarına (yəhudilər, xristianlar, atəşpərəstlər və s.) müraciət formalarını eyni tutmamalıyıq.

Əgər biz ayələri belə bir kompleks yanaşma əsasında nəzərdən keçirsək, "Ənfal" və "Bəraət"[1] surələrində bütpərəst bədəvi ərəblərə Quranın baxış tərzini, Peyğəmbərin də bu məsələdə mövqeyini başa düşəcəyik. Bu iki surə həmin dövrdə bütpərəst Cahiliyyət ərəblərindəki çatışmazlığı, ictimai-mədəni bədəviliklərini izah edir. Məlum olur ki, onlar cahil və nadan qəbilələrdən ibarətdir, verdikləri sözü tutmur, himayədarlığı pozur, əhdlərə, qaydalara riayət etmirlər. Nəticədə, bu qəbilələrə özünütəcrid və "təntiklik" xas olmuşdur; onlar kaftar və canavarlar kimi etibarsız idilər, onlarla yaşamaq mümkün deyildi. Bu üzdən onları bəşəri-mədəni və ictimai cəhətdən tərbiyə etmək müstəsna dərəcədə zəruri idi. Bu qəbilələri ictimai-mədəni anormallıqdan xilas edib tərbiyələndirmək üçün onları mədəni və ictimai islam cəmiyyətinə inteqrasiya etdirmək lazım gəlirdi.

İslam cəmiyyəti öz qarşısına həmin bədəvilərlə əlaqəli iki başlıca vəzifə qoymuşdu:

a) onları camaat namazları vasitəsi ilə ictimailəşdirmək;

b) zəkat alıb-verməklə onları iqtisadi sistemin bir parçası halına gətirmək.

---

[1] "Tövbə" surəsinin başqa bir adı – ***tərcüməçinin qeydi.***

Camaat namazında iştirak edib zəkat verdikləri təqdirdə həmin bədəvilərə heç kim toxunmurdu. Bu səbəbdən yalnız əlisilahlı döyüşçülərdən islamı qəbul etmək istənir, qadınlardan eyni şey tələb olunmurdu. Hətta Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Qüreyşdən bir sıra şəxslərə (islamı qəbul etmək üçün) möhlət vermişdi. Təbii ki, bu hadisə Məkkə fəth edilib Ərəbistan yarımadası bədəvi ərəb qəbilələri arasında islam cəmiyyəti quruluşunun bərqərar olmağından sonra baş vermişdi. Çünki həmin şəxslərə möhlət vermək cəmiyyətin, ələlxüsus mədəni Qüreyş cəmiyyətinin stabilliyinə təhlükə yaratmırdı. O Qüreyş cəmiyyətinin ki, müqaviləni pozub müsəlmanlara və müttəfiqlərinə təcavüz etdikdən sonra islam hakimiyyətinə tabe etdirilmişdi.

Bu səbəbdən görürük ki, təsirli danışığı, parlaq zəkası olan Raşidi xəlifə Əbubəkr əs-Siddiq *(Allah ondan razı qalsın!)* bədəvi ərəblər haqda nazil olmuş "(Qənimət əldə etmək iştahası ilə islama daxil olan) bədəvi ərəblər: "Biz iman gətirdik!" – dedilər. (Ya Peyğəmbər! Onlara) de: "Siz (qəlbən) iman gətirmədiniz! Ancaq: "Biz islamı (müəyyən şəxsi məqsəd, mənfəət naminə) qəbul etdik!" – deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır (çünki iman əməllə etiqadın vəhdəti, islamı qəbul etmək isə yalnız zahiri əməl deməkdir)..." ayəsini[1] düzgün başa düşmüşdü; bəzi bədəvi ərəb qəbilələri mədəni-ictimai quruluşa inteqrasiyanı rədd edərək "əks inqilab"a başladıqları vaxt Həzrəti Əbubəkr həmin ayədəki ictimai-mədəni məzmunu bütün aydınlığı ilə başa düşmüşdü. Əslində bu "inqilab" Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* vəfatından az əvvəl peyğəmbərlik iddi-

---

[1] "əl-Hucurat" surəsi, 14-cü ayə.

asında olanlar tərəfindən başladılmışdı. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* vəfat etdikdən sonra hakimiyyətə gələn Həzrəti Əbubəkr həmin bədəvilərlə savaşmaq, onları mədəni-bəşəri və ictimai islam quruluşuna daxil etmək üçün qətiyyət göstərdi. Çünki həmin qəbilələrlə Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* necə davrandığını, onlar haqda Quran ayələrinin mahiyyətini dərin zəkası ilə başa düşmüşdü.

Bədəvi ərəblərin üsyanı, zəkat verməmələri, bununla da islam cəmiyyətinin sosial həmrəylik prioritetlərinə qarşı çıxmaları, deməli, mədəni-ictimai quruluşa tabe olmaqdan boyun qaçırmaları – bütün bunların əqidə və inancla əlaqəsi yoxdur. Çünki bu qəbilələr mədəni-ictimai "libas"a bürünən kimi, islam etiqadı onların qəlbində özünə yer edəcəkdi.

Mədəni islam əqidəsi bədəvilərin bütpərəst əqidələri ilə müqayisə edilməməlidir. Məsələ ictimai quruluş və mədəni-bəşəri anormallıq (çatışmazlıq) məsələsi idi. Özü də bu elə bir vaxtda baş vermişdi ki, bəzi səhabələr çaşqınlığa düşmüşdülər. Həzrəti Ömər onlardan biri idi. Çünki onlar Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* vəfatından sarsılmış, elə həmin günlərdə müxtəlif təhlükələrlə üz-üzə gəlmişdilər. Bizans və Sasani imperiyalarının gənc islam dövlətinə təhlükə yaratması, zəkat vermək və bəşəri-mədəni və ictimai islam cəmiyyətində yaşamaq istəməyən bədəvi ərəb qəbilələrinin Ərəbistan yarımadasında alovlanan üsyan-larını belə bir çətin vəziyyətdə yatırmağın mürəkkəbliyi – bütün bunlar psixoloji gərginlik və çaşqınlıq doğurmuşdu. Mədinə şəhəri və islam dövlətinin sərhədləri xaricində yaşayan həmin bədəvi ərəb qəbilələrinin dönüklüyündə təhlükə vardı, irqi barbarlıq vardı, talan və qəsbkarlıq vardı.

Lakin Əbubəkr *(Allah ondan razı qalsın!)* soyuqqanlı idi, parlaq zəkası ilə başa düşürdü ki, düşmənlə savaşmaq lazımdır. Odur ki mövqeyində güzəştə getmədi, zəkat verməməklə müsəlman olduqlarını danan həmin qəbilələrlə savaşmaqda qətiyyət göstərdi. Həzrəti Əbubəkr elə siyasət yürütdü ki, ölkənin daxili və xaricində pusquda gözləyən düşmənlərə müsəlmanların zəif olduğunu hiss etdirmədi. Onun bu qətiyyətini, ilk əvvəl, bəzi səhabələr məqbul hesab etmədilər. Elə zənn etdilər ki, məsələ iman məsələsidir, islam məsələsi deyildir. Çünki Quran təsdiqləmişdi ki, "Ya Peyğəmbər! Onlara) de: "Siz (qəlbən) iman gətirmədiniz!" (əl-Hucurat, 14). Görünür, onlar bu qarmaqarışıq vaxtda, Mədinənin ətrafında him gözləyən həmin bədəvi ərəb qəbilələrinin başlıca təhlükəsini düzgün qiymətləndirə bilməmişdilər. Həmçinin onlar başa düşməmişdilər ki, həmin qəbilələri mədəni cəhətdən xilas etmək, onlara bəşəri-mədəni islam cəmiyyətinin prioritet tələblərinə qarşı çıxmaq imkanı verməmək lazımdır; bu səhabələr islam ictimai quruluşundan "dönməy"in (imtinanın) qarşısını ilk mərhələdəcə almağın mühümlüyünü də dərk etməmişdilər. Sonralar Həzrəti Ömər müxaliflərinin Həzrəti Əbubəkrin *(Allah ondan razı qalsın!)* mövqeyi ilə razılaşıb, onun liderliyi və müdrikliyinə bel bağlamaqlarını belə ifadə etmişdi: "Allaha and olsun ki, Əbubəkrin *(Allah ondan razı qalsın!)* qətiyyətini gördükdə onun kim və hansı məziyyətlərə sahib olduğunu başa düşdüm. Allah zehnimi açmış (və mən həqiqəti görmüşdüm)". O Əbubəkrin ki, "Onlar ki "lə iləhə illəl-lah" deyirlər, (onlarla necə savaşa bilərsən axı?!)" – deyə etiraz edənlərə qətiyyətlə bu cavabı vermişdi: "Allaha and olsun ki, namazla zəkat arasında fərq qoyanlarla savaşacağam!"

Hər kəs, o cümlədən Həzrəti Ömər başa düşdü ki, xəlifə Əbubəkr mövqeyində haqlıdır və bədəvi qəbilələrlə mübarizə aparmaq iman və etiqad müharibəsi deyildir: "(Qənimət əldə etmək iştahası ilə islama daxil olan) bədəvi ərəblər: "Biz iman gətirdik!" – dedilər. (Ya Peyğəmbər! Onlara) de: "Siz (qəlbən) iman gətirmədiniz!" (əl-Hucurat, 14); əksinə, bu müharibə həmin qəbilələri ibtidai Cahiliyyət həyat tərzindən xilas etmək mənasına gəlirdi. Cahiliyyət həyat tərzi isə mədəni-bəşəri və ictimai həyat pilləkənlərində şərəflə addımlamaq istəyən kimsəyə yaraşmaz. Elə insan oğlu da şərəfli yaşamaq üçün mövcuddur.

Bununla yanaşı, Həzrəti Əbubəkrin atdığı qətiyyətli addımlar islam dövləti və mədəniyyətini sözügedən qəbilələrin bədəviliyi və nadanlığından xilas etmək məqsədi daşıyırdı.

Bədəvi qəbilələrin dindən dönmələri həm onların özünə, həm də islam dövləti və mədəniyyətinə təhlükə idi. Təəssüf ki, sonralar alimlərin çoxu bu məqama diqqət yetirməyiblər. Onlar "bəşəri-mədəni və ictimai əhliyyətin tələbləri" problemini etiqada azadlığı hüququ ilə qarışıq salıblar. Bununla da elə zənn etmişlər ki, islam dəvətinin əsas prinsipi sayılan etiqad azadlığı hüququnu insanın əlindən almaq mümkündür. Onu da zənn etmişlər ki, bu başlıca hüquqa müəyyən funksiyalar yükləmək, onu dövlətin siyasi maraqları naminə ləğv etmək mümkündür. Onlar öz iddialarını əsaslandırmaq üçün "nəsx"[1] əməliyyatından istifadə etmişlər. Halbuki "nəsx" Quran üçün doğru bir şey deyildir. Əgər bunu iddia ediriksə, deməli, Qura-

[1] Quranın bir ayəsinin digər ayəni qüvvədən salması. Ənənəvi islam terminologiyasında qüvvədən salan ayə "nasix", salınan ayə isə "mənsux" adlandırılmışdır – ***tərcüməçinin qeydi***.

nın insana yanaşma tərzini başa düşməmişik. Çünki ilahi kəlam zaman və məkan fərqi qoymadan, bütün situasiyalar üçün insana müraciət edir. Əks halda isə qeyri-iradi olaraq, Quranın "ibtidailiy"ini iddia etmiş olarıq. Quranın hər bir ayəsi, hər bir təlimatı, ondakı hər bir anlayış müəyyən psixoloji və sosial situasiya ilə əlaqəlidir. Odur ki oxşar situasiyalarda bu cəhət nəzərə alınmalıdır.

Bir sıra alimlərin haqlı olaraq iddia etdikləri kimi Quranda göstərilən "nəsx" və "unutdurma" məsələsi keçmiş xalqlar və bəşəri mərhələlərə aid ilahi kəlam və risalətlərlə[1] əlaqəlidir. O ilahi kəlam ki, təhrif olunub, unudulub, bəşəriyyətin sonrakı inkişaf mərhələləri onu arxada qoyub. Nəhayət, bu inkişafda universal islam risaləti son nöqtəni qoyub, inkişafı (risalətləri...) tamamlayıb:

"(Ya rəsulum!) Biz (Quranı) sənə haqq olaraq, özündən əvvəlki kitabı (bütün ilahi kitabları) təsdiq edən və onu qoruyan (və ya onların doğruluğuna şahid) olaraq endirdik..." (əl-Maidə, 48);

"Biz (zaman, məkan və şəraitin tələbinə görə) hər hansı bir ayəni (ayənin hökmünü) ləğv edir və ya onu unutdururuqsa, ondan daha yaxşısını, yaxud ona bənzərini gətiririk..." (əl-Bəqərə, 106);

"(Ya Rəsulum!) Sənə Kitabı (Quranı) nazil edən Odur. Onun (Kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabeh (çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar

[1] Peyğəmbərlik; ilahi təlimlər – ***tərcüməçinin qeydi***.

fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabeh ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan (yaxud Allahdan və elmdə qüvvətli olanlardan) başqa heç kəs bilməz...” (Ali-İmran, 7)[1].

---

[1] Mütəşabehlik Quran ayələrinin məzmununda problemin və ya Quran üslubunda qaranlıq məqamların olmağı mənasına gəlmir. Haşəllah, Quranda mütəşabehlik dedikdə bu nəzərdə tutulmur. Quran bütünlükdə aydın və müfəssəl izah olunmuş kəlamdır: “Biz nöqsansız-qüsursuz (heç bir əyri-üyrülüyü, dolaşıqlığı olmayan) ərəbcə bir Quran nazil etdik...” (əz-Zumər, 29). Bəzi alimlərin dediyi kimi, söhbət əvvəlki xalqlarla əlaqəli tarixi hadisələrə, peyğəmbərliklərə, təhrif olunmuş ilahi kəlam və tarixi əfsanələr dair bəzi qissələrdə, təlimat və eyhamlarda özünü göstərən mütəşabehlikdən gedir. Qurani-Kərimdə xəbərdarlıq edilir ki, bəzi bədniyyət şəxslər Quranda həmin qissə və eyhamlarla əlaqəli mütəşabehlikdən sui-istifadə etmişlər. Məqsədləri bir çox əsatir və təhrif edilmiş əhvalatları islam dininə “daxil” etməkdir. Və onlar müəyyən xurafatları islam fikrinə daxil edə bilmişlər. Təəssüf ki, məhdud sayda belə xurafatı qəbul etmək islam fikrini korlamaq, bir sıra prinsiplərini sarsıtmaq üçün kifayət edir. Bu, sağlam bədəni məhv edən bir damcı zəhərə bənzəyir. İslamın universal prinsipləri, məqsəd və dəyişməz əsasları ilə ziddiyyət əmələ gətirən dini mətnə (hədisə) – hətta “ahad” olsa da, – “güzəşt”ə getmək olmaz. Bu, hədislərin məzmununun tənqid edilməsi ilə əlaqəli məsələdir. Təəssüf ki, bəzi tədqiqatçılar yuxarıdakı ayədə söz açılan “mütəşabehliy”i məzmun qaranlığı, mənada gizlilik olaraq başa düşmüşlər. Bu, səhv yanaşmadır və əfsuslar olsun ki, bir çox təfsir və tarixi irs kitablarında təkrarlanmışdır. Bir sıra uydurma hədislərdə də bu iddianı gücləndirən “dəlillər” vardır. Əsatirlər, yəhudi qissələri və təhrif olunmuş dini mətnlərə açılan bu qapı islam fikrinə dair ədəbiyyatda eyni vəziyyətin yaradılması vasitəsinə çevrilib.

Aydın məsələdir ki, bu vəziyyətin yaranıb möhkəmlənməsində bəzi tədqiqatçıların səhv yanaşmaları, bəzilərinin də məqsədyönlü “fəaliyyət”i əsas rol oynayıb. Bütün bunlar, hər bir halda, ümmətin fikir dünyasına böyük zərbə vurub. Müsəlmanlar bu gün də həmin problemdən əziyyət çəkirlər. İslam ədəbiyyatını yəhudi qissələri, uydurma hekayələr və əsa-

tirlərdən təmizləmək işi – bir sıra müəlliflər bu işlə məşğuldurlar – son dərəcə ayıqlıq, Qurana əsaslanaraq istinad və məzmunu tənqid etməklə əlaqəli ciddi tədqiqatların aparılmasını tələb edir. Bəlkə, bunun sayəsində islam fikri uydurma hekayələrdən, xurafat və əsatirlərdən, xüsusən yəhudi qissələrindən təmizlənər.

Quranda keçmiş millətlər, peyğəmbər və peyğəmbərliklər, hadisələr haqda söz açan qissə və məlumatların ətraflı və müfəssəl izahına ehtiyac yoxdur. Yəni, keçmiş xalqlar və dinlər haqda təfsilatlı məlumat vermək Quran məntiqinə xas deyildir. Müsəlman şəxs bu məqamda Quranın təqdim etdiyi informasiya ilə kifayətlənməlidir. Bundan artıq təfsilata girmək, yozum gətirmək – əslində bu, Quranın həmin məsələləri bizə çatdırmaqdakı məqsədi ilə səsləşmir – lüzumsuzdur. Quranda nə üçün bu həddə məlumatın verilməsinin sirrini isə ancaq Allah bilir. Əlavə izahlara girişmək, Quranı əvvəlki millətlərdən qalmış uydurma rəvayətlərlə yozmaq zəlalətə, fitnə-fəsad və geriliyə aparıb çıxarır. Bu işdən müsəlmana fayda yoxdur. Olsaydı, Quran təfsilata girərdi. Bəlkə də, "Əshabi-Kəhf" qissəsi ilə Quran bizə keçmiş millət və peyğəmbərliklərlə əlaqəli hadisə, rəvayət və problemlərə düzgün münasibət bəsləməyi öyrədir.

Uca Allah buyurur: "(Ya Rəsulum!) Yoxsa əshabi-kəhfin və Rəqimin (mağara və Rəqqim əhlinin) ayələrimizdən əcaib bir şey olduğunu güman edirsən? (Xeyr, bu Bizim qüdrətimiz qarşısında adi bir işdir)" (əl-Kəhf, 9); "(Kitab əhlindən əshabi-kəhfin sayı barəsində mübahisə edənlər) sanki qaranlıq yerə daş ataraq: "Onlar üçdür, dördüncüsü köpəkləridir!" - deyəcəklər. Bəziləri: "Onlar beşdir, altıncısı köpəkləridir!" – deyəcəklər. Digərləri (möminlər) isə: "Onlar yeddidir, səkkizincisi köpəkləridir!" – söyləyəcəklər. (Ya Rəsulum!) De: "Onların sayını Rəbbim daha yaxşı bilir. (İnsanlardan isə) bunu bilən çox azdır!" (Ya Rəsulum! Əshabi-kəhf) barəsində yalnız sənə açıq-aşkar nazil olan ayələrə əsaslanıb onlarla mübahisə et (Quranda olanlarla kifayətlənib çox dərinə getmə) və (kitab əhlinin) heç birindən onlar haqqında bir şey soruşma!" (əl-Kəhf, 22); "Onlar mağarada üç yüz doqquz il qaldılar. (Üç yüz il qaldılar, üstünə bir doqquz il də artırdılar)" (əl-Kəhf, 25); "(Ya Rəsulum!) De: "Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybini bilmək ancaq Ona məxsusdur. O, hər şeyi necə gözəl görür, necə də yaxşı eşidir!

Beləliklə, bədəvi qəbilələrin dönüklüyü hər hansı bir inancın zorla qəbul etdirilməsi ilə, onların ərəb və ya qeyri-ərəb olmağı ilə əlaqəli deyildir. Onların Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* xalqı olmağı, onun (Peyğəmbərin – ***mütərcim***) dövlətinin əsasını əmələ gətirmələri də heç nəyi dəyişmir. Bütün bunlar islamın mahiyyətini, insanlıq məsuliyyətinin məzmununu, islam dəvətinin fəlsəfəsini, sonuncu dinin bütün bəşəriyyətə göndərilməsi prinsipini dəyişdirə bilməz. Elə isə bu, vicdan azadlığını, hər bir insanın sahib olduğu inanc seçimi hüququnu ləğv edə bilməz. İnsan gərək bir inancı qənaətbəxşliklə qəbul etsin, – bu, onun varlığı və məsuliyyəti ilə əlaqəli məsələdir.

İslamı doğru öyrənib yaxşı bilən, Allaha və axirətə inanan, dünyada yaxşı işlər görüb abadlıqla məşğul olmağı məqsəd seçən insan dönük olmaz. Belə insan islamı qoyub xurafatın arxasınca qaçmaz, materialist-ateist ideologiyalara aldanmaz.

Məsələ cəmiyyət və dövlətdən irəli gələn axsamalar, xalqa və gənclərə münasibətdə təlim-tərbiyə və dəvət qurumlarının yol verdiyi qüsurlar məsələsidir. Öz funksiyalarını düzgün icra etməyən bu qurumlar bəzi savadsız və adi şəxslərin inancla bağlı hərəkətlərinə qadağa qoyub cəza kəsmədə ifrata varırlar. Odur ki bir çox ölkədə xalq kütlələrinin imanı (inancı) bu qurumların yarıtmazlığı üzündən fəhm və qənaətbəxşlikdən uzaq söz və təzahürü əks etdirir.

---

Onların (yer və göy əhlinin) Allahdan başqa heç bir hamisi yoxdur. O, heç kəsi öz hökmünə (səltənətinə) şərik etməz!" (Çünki Allahın heç bir şərikə ehtiyacı yoxdur!)" (əl-Kəhf, 26); "Rəbbinin kitabından sənə vəhy olunanı oxu. Onun sözlərini heç kəs dəyişdirə bilməz. (Allahdan) başqa heç bir sığınacaq tapa bilməzsən! (Pənah yalnız Allahadır!)" (əl-Kəhf, 27).

Deməli, islamdan, Allaha və peyğəmbərinə imandan, yer üzündə xeyir işləməkdən üz çevirən – dönüklük edən şəxs ya psixoloji xəstədir, ya dini-mədəni savadı yoxdur, ya da ideoloji-siyasi, maddi maraqlara xidmət edir.

Hər bir dönüklük vəziyyətinin münasib yolla aradan qaldırılması mümkündür: psixoloji xəstəlik müalicə olunmalıdır; savadsızlıqla (həqiqətdən bixəbərlik) bilik, savadlanma, qaranlıq məqamları izah etmək əsasında mübarizə aparılmalıdır.

İslam dünyasında xütbələrdəki qarmaqarışıqlıq, müasir islam fikrindəki çatışmazlıqlar, bəzi müsəlmanların davranışları – bütün bunlar danılmazdır. Odur ki psixoloji xəstəliklər, savadsızlıq davam edir və insanlar "şəfa" tapmırlar.

Kim düzgün "müalicə" olunmağına baxmayaraq, özünü "xəstə" kimi apararsa, boynuna günah düşər. Bu məqamda o, azaddır və seçim haqqına sahibdir.

Dedik ki, boynumuza düşən təlim-tərbiyə vəzifəsini layiqi ilə icra etsək, ağıllı kimsələr dönük çıxmayacaqlar. İslam, dinini düzgün tanıyıb, mahiyyətini başa düşmüş şəxsin mürtəd olmağından ehtiyatlanmır.

Lakin üzərində dayanmağımız lazım gələn təəssüfedici məqam budur ki, bir tərəfdən, kasıblıq, işsizlik və ehtiyac, digər tərəfdən isə dini savadsızlıq, yeniyetmələrin nadanlığı, gənclərin həyata dar baxışı və emosional iddiaları və nəhayət, ümmətin laqeydliyi, dağıdıcı fəaliyyət üçün bu vəziyyətdən istifadə edənlərin pusquda durmaları mürəkkəb vəziyyət əmələ gətirir.

Əgər mürtədlik məqsədyönlü olub təhlükəli vəziyyət yaradarsa (və ya müsəlmanlara əziyyət etmək, ümmət arasında fitnə-fəsad çıxarmaq, dini gözdən salmaq məqsədi daşıyarsa),

səbəblər, naticə və əks-təsirlər nəzərə alınır. Bu cür mürtədlik quldurluq və yer üzündə fitnə-fəsad yaratmaq kateqoriyasına daxildir. Bu cür mürtədliklə mübarizə aparmağın etiqad azadlığının məhdudlaşdırılması ilə əlaqəsi yoxdur. Belə dağıdıcı fəaliyyətlə məşğul olan mürtədlərə kəsilən cəza situasiyaya görə müəyyən edilməli, mövcud vəziyyət və nəticələr nəzərə alınmalıdır.

İslamı bildikləri halda inadkarlıq, təəssübkeşlik, bəsirətsizlik və ya nadanlıq üzündən mürtəd olan şəxslərin vəziyyətinə gəlincə, bu, zəlalət və məhrumiyyətdir; belə şəxslər etdiklərinə görə məsuliyyət daşıyırlar: "Hər kəsin qazandığı günah ancaq özünə aiddir. Heç bir günahkar başqasının günahını daşımaz" (əl-Ənam, 164)"; onlarla səbirli və müdrik davranmaq, onları gözəl şəkildə Allahın yoluna dəvət etmək lazımdır:

"(Ya rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mübahisə et. Həqiqətən, Rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır!" (ən-Nəhl, 125).

Bundan əvvəl dedik ki, Quranda konkret təhlükəli vəziyyət haqda danışılır. Belə ki Mədinədə bəzi yəhudilər özlərini iman gətirmiş kimi göstərir, sonra dindən (islamdan) çıxdıqlarını car çəkirdilər. Məqsədləri müsəlmanlar arasında fitnə-fəsad çıxarmaq, çaxnaşma salmaq idi:

"Kitab əhlindən (yəhudilərdən) bir dəstə (bir-birinə) dedi: "Möminlərə nazil edilənə (Qurana) günün əvvəlində (səhər vaxtı) inanın, həmin günün axırında (axşam vaxtı) isə onu in-

kar edin! Bəlkə, (möminlər öz dinlərindən) üz döndərsinlər" (Ali-İmran, 72).

Quranda bu cür dağıdıcı fəaliyyətə görə hansı cəzanın verilməsi göstərilməyib; bu işdə səlahiyyət dövlətin – "əmr sahibi"nin (***vəliyyil-əmr***) öhdəsinə buraxılıb:

"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!" (ən-Nisa, 59).

"Əmr sahibi" anlayışı zaman və məkana görə dəyişir. Həmin vaxt əmr sahibi Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* idi. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* vəziyyəti nəzərə almış, münasib cəza növü müəyyənləşdirmişdir. Dindən dönərək fitnə-fəsad yaradan, islama və müsəlman dövlətinə savaş elan edən bu intriqaçılarla Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* mübarizə aparmış, onların öldürülməsi hökmünü vermişdi:

"Kim dinini dəyişərsə, öldürün!"

Məlum məsələdir ki, bu hökm siyasi hökm olub, intriqalarla əlaqəlidir, inanc seçimi və etiqad azadlığına zidd deyildir. Hər bir halda, bu hökmlə intriqaçı dönüklərə lazımi xəbərdarlıq olunmuş, müsəlmanların təhlükəsizliyi qorunmuş, fitnə-fəsad beşiyindəcə boğulmuşdu.

Ümumiyyətlə, müsəlmanlara yalanla, fitnə-fəsadla, müxtəlif vasitələrdən, ələlxüsus şerdən istifadə etməklə intriqa quranlara qarşı Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* lazımi tədbirlər görmüşdür. O dövrdə şer islamı təhqir etmək, müsəlmanlara tənə yağdırmaq, onları gözdən salmaq, əsəbləri tarıma çəkmək üçün münasib vasitə idi. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bu işlə məşğul olanlara cəza ilə hədə-qorxu gəlmişdir. Şerlə təhqir etmək fikir azadlığı, dialoq, tənqid və ya etiraz qəbilindən bir şey

deyildi. Quranda narazıların etirazları, tənqidçilərin şübhələri göstərilir və bütün bunlara cavab verilir. Müxtəlif ədəbi-bədii vasitələr – keçmişdə şer, indi isə romanlar, rəsmlər, musiqi və filmlər – təhqirə, söyüşə, nüfuzun ləkələnməsinə, gözdən salmağa xidmət edərsə, töhmətə, qınağa layiqdir[1]. Hətta görürük ki, sivil cəmiyyətlərin qanunvericiliyində zövqə uyğun olaraq, "müqəddəs və şərəfli şeylər" təsis edilib. Həmin qanunlarda bu müqəddəs şeylərə münasibətdə fikir və söz azadlığı tanınmır. Belə "toxunulmaz" məsələlərin ən məşhuru "Holokost"dur[2]. Avropada yəhudilərin soyqırımını inkar edənlər əleyhinə qanunlar çıxarılmışdır.

Halbuki bu gün ümmətin və islamın bəzi düşmənləri həmin vasitələrdən "lazımınca" istifadə edirlər. İslama, müsəlmanlara, müqəddəs dəyərlərinə qarşı ədavət yaratmaq, başqa xalqları onların əleyhinə qaldırmaq üçün sözügedən vasitələr işə yara-

---

[1] Əziz oxucumuz araşdırma və dialoqu təhqir və gözdən salmadan fərqləndirsin deyə ona bəzi məqamları xatırlatmaq istəyirik. Araşdırma və dialoq təfəkkürə, dəlil və arqumentlərə əsaslanır, tədris məkanlarında, elm-bilik ocaqlarında aparılır. Təhqirə, söyüşə, heysiyyətin tapdanmasına (ana və bacıların pozğun adlandırılması, müqəddəs dəyərlərin fahişəliklə eyniləşdirilməsi), ədəbi-bədii vasitələrin (mahnılar, şer və romanlar, hekayələr, karikatura, film) bu işə cəlb edilməsinə gəlincə, buna əks-reaksiya qəzəbli olacaqdır; qəzəblənən tərəf müqəssir cəzalandırılmadıqca və ya fəaliyyəti dayandırılmadıqca sakitləşməyəcəkdir. Əgər bu baş verməzsə, məyus olmuş tərəf, nəticə nə olursa-olsun, qanunları sərf-nəzər edəcəkdir. Buna görə də belə həssas məsələni düzgün dərk etmək, xalqların müqəddəs dəyərləri ilə əlaqəli mövzularda xoşagəlməz vəziyyətin yaranmamağına cəhd göstərmək, qabaqlayıcı tədbirlər görmək lazımdır.

[2] Holokost – yəhudi soyqırımı ya da Ha-Shoa (ivritcə: fəlakət). Almaniyanın faşizm dövründə təxminən 6 milyon nəfərin sistemli şəkildə öldürüldüyü qətliama verilən ad – ***tərcüməçinin qeydi.***

yır. Təsəvvür edirsinizmi, dünya əhalisinin beşdə birini əmələ gətirən müsəlmanların müqəddəs dəyərləri "söz və fikir" azadlığı bəhanəsi ilə təhqir olunur!

Müsəlman coğrafiyasının hökumət və xalqları ümmətin müqəddəs dəyərləri və inancının təhqir edilib, müsəlmanların gözdən salınması cəhdlərinin qarşısını almaq üçün qanunların çıxarılmasını tələb etməli, diplomatik vasitələrlə təzyiq göstərməli, iqtisadi boykota əl atmalıdırlar. Həmçinin digər hökumətlərdən tələb edilməlidir ki, xalqlar arasında ədavət yaratmaq məqsədilə dinləri, müqəddəs dəyərləri təhqir edən qüvvələrin fəaliyyətinə son qoyan qanunlar çıxarsınlar. Əgər belə qanunlar və cəzalar mövcud deyilsə, hökumətlərin üzrxahlıqlarının faydası yoxdur. Holokostu inkar edənlərin cərimələnməsi buna ən yaxşı misaldır. Müsəlman və qeyri-müsəlman dövlətlər bunu nümunə götürməlidirlər. Ona görə götürməməlidirlər ki, araşdırmaları, elmi müzakirə və dialoqları qadağan etsinlər – islam sağlam tədqiqatı, obyektiv müzakirə və dialoqu alqışlayır; – əksinə, götürməlidirlər ki, obyektiv yanaşma, elmi tənqid və həqiqətdən uzaq bədii kontekstlər vasitəsi ilə həyata keçirilən iftiranın, təhqirin, alçaltmanın qarşısı alınsın! Çünki bu cür vasitələrlə həqiqətlər təhrif olunur, ayaqlar altına atılır, xalqın nəzərində səhv qənaət, əsassız fikirlər, şayiələr formalaşır. Bütün bunlar təhqirdir, böhtan və hərzə-hədyanlıqdır, saxtakarlıqdır, fitnə-fəsad çıxarmaqdır, qəzəb oyatmaqdır. Əsrlər boyu müsəlmanlarla qərbilərin münasibətlərini məhz bu cür yalanlar, uydurmalar "tənzimləyib"! Belə yanaşma həqiqətin elmi cəhətdən axtarılmasına zidd olub, xalqlar, dinlər, mədəniyyətlər arasında əlaqə yaratmağı məqsəd güdən dialoqla da səsləşmir.

Öz dövründə hakimiyyətin sahibi sayılan Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* islam cəmiyyətində fitnə-fəsad çıxarmaq üçün intriqa ilə məşğul olanlara kəsdiyi cəza "təzir"[1] cəzası idi. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* səlahiyyət sahibi olaraq bu cəzanı yaşadığı dövrə uyğun şəkildə müəyyənləşdirmişdi. Elə isə bu cəza fərqli situasiya və zamanlar üçün keçərli deyildir. Cəzalandırmanın məqsədi budur ki, cəmiyyətin təhlükəsizliyi ilə oynamaq olmaz. Çünki zamandan asılı olmayaraq, cəmiyyətin stabilliyini pozmaq quldurluq, pozuculuq sayılır; cəmiyyətdə əmin-amanlığı pozanlar isə islam dövlətində ağır şəkildə cəzalandırılır. Dindən və ya başqa şeydən bu məqsədlə istifadə fərq etmir, cəzalandırma qaçılmazdır.

Adı çəkilməyən və cəmiyyətə dağıdıcı təsir göstərən cinayətlərlə (bu cinayətlər Quranda bəhs edilən "qətl, zina, oğurluq, quldurluq və yer üzündə fitnə-fəsad çıxarmaq" cinayətlərindən heç də az təhlükəli deyildir) əlaqəli cəzaların "quldurluq və yer üzündə fitnə-fəsad çıxarmaq" kateqoriyasına daxil edilməsi mümkündür. Situasiya, cinayətkarın vəziyyəti, cinayətin məqsədi, cinayətin doğurduğu nəticə, quldurluq və qətlə görə Quranda göstərilmiş cəzalar, şərindən cəmiyyət xilas olsun deyə cinayətkarın həbsi – bütün bunlar münasib "tə`zir" cəzasının müəyyənləşdirilməsində nəzərə alınmalıdır. Əgər cinayət səhvən baş veribsə, yaxud da cüzi maddi qazanc üçün işlənibsə, təqsirkarı bağışlamaq mümkündür. Elə dövrümüzdə də bir sıra missioner təşkilatlar öz dinlərini yaxşı bilməyən, na-

---

[1] **Tə`zir:** Allah tərəfindən müəyyən edilməmiş cəza növləri nəzərdə tutulur. Fəqihlər həmrəydirlər ki, bu növ cəzalar "qiyas" əsasında təsis edilə bilər – ***tərcüməçinin qeydi***.

dan, avam, kasıb və ehtiyac yiyəsi bəzi müsəlmanları tora salır, dinlərindən döndərirlər. Bu amil mütləq nəzərə alınmalıdır.

Təəssüf ki, müsəlman dövlətlərinin, xeyriyyə və dəvət qurumlarının əksəriyyəti ya acizlik, ya da əhliyyətsizlikdən, xüsusən kasıb ölkələrdə xalqın savadsız və imkansız təbəqəsi ilə işləyə bilmir. Savadsız və kasıb insanlara iş imkanları yaratmadan onlara dini gözəl şəkildə öyrədən maarifləndirici qurumlara ehtiyac vardır. Bu amil – iş imkanlarının yaradılması, eyni zamanda, sözügedən təbəqə ilə işləyən dəvət müəssisələrinin işini çətinə salır. Dini təşkilatlar isə həmin kasıb təbəqəni aldadan qurumlara (missioner təşkilatları – ***mütərcim***) lənət oxumaqla kifayətlənir, özləri də bilirlər ki, bu addım faydasız olub heç nəyi dəyişmir.

Elə şəxslər vardır ki, islamdan imtina etdiyini car çəkən, inadkarcasına, yaxud haqqı danaraq küfrdə israr edən, digər dinləri, ideologiyaları (ateizm, materializm, millətçilik...) seçdiyini bildirən hər kəsin cəzalandırılmasını tələb edirlər. Onlar iddia edirlər ki, belə insanları islama qayıtmağa məcbur etmək lazımdır. Biz bu iddianı səsləndirənlərə üzümüzü tutub deyirik: yuxarıda göstərilmiş insanlar, əgər mövcuddurlarsa, ictimai-tərbiyəvi naqislik, mürəkkəb psixoloji və maddi vəziyyət üzündən azlıq təşkil edirlər.

Məlum məsələdir ki, bu şəxslərin imanını "ölçmək", əqidələrini himayə etmək bir nəticə verməyəcəkdir. Əslində, bu addım cəmiyyətdə bir ovuc münafiqin, narazı və küskünün, islama və ümmətə nifrət bəsləyən şəxslərin yaranmasına səbəb olacaqdır. Biz bu işin nəticəsi haqda düşünməliyik: qınına çəkilmiş həmin münafiqlərin aktivləşməsinin ümmətə bir faydası vardırmı?

Mühüm olaraq bilməliyik ki, savadsızlıq və ya "xəstəlik" üzündən mürtəd olmaq məqsədli səkildə dindən dönməkdən fərqlənir. Elə isə məqsədyönlü şəkildə dindən dönüb təhlükəli məqsədlərə xidmət edənləri qanuni ölçüdə xəbərdar etmək zəruridir. Onlar müsəlman cəmiyyəti və ümmət daxilində intriqa yaratmaq, fitnə-fəsad çıxarmaq məqsədilə dindən sui-istifadə etdikləri, cinayətlərində etiqad azadlığını özlərinə qalxan seçdikləri üçün xəbərdar olunmalıdırlar. Əks halda, bəxtlərindən küssünlər. Təbii ki, bunun etiqad və vicdan azadlığı ilə əlaqəsi yoxdur.

Deyilənlərdən o da məlum olur ki, iman (əqidə) könüllü olmalı, qənaətbəxşliyə əsaslanmalıdır. Bununla yanaşı, kasıblıq, savadsızlıq və psixoloji xəstəlik kimi halların aradan qaldırılması, şəraitə uyğun olaraq intriqaçıların fəaliyyətinin qadağan edilməsi üzərində işləmək lazımdır.

"Dönüklüyün cəzası" haqda deyilənləri xülasə etsək, aydın olur ki, islam tarixində bu məsələ etiqad azadlığı ilə əlaqədar olmayıb. İslam etiqad azadlığını alqışlayır, ona çağırış edir, bir əqidə problemi olaraq bundan qorxmur. Dediyimiz kimi, bu məsələ müstəsna vəziyyətlərlə (savadsızlıq, imkansızlıq, psixoloji xəstəlik, müəyyən məqsədlərə xidmət) əlaqəlidir. Xalqlar tarixən islamı könüllü qəbul etmişlər. Elə indi də bir çox şəxs eyni cür hərəkət edir. Müsəlman dövlətləri, təlim-tərbiyə, dəvət və xeyriyyə qurumları əllərindən gələni edib xalqın vəziyyəti ilə maraqlanmalı, ümmətin inancını və dünyagörüşünü qorumalıdırlar. Dünyagörüşünün sağlamlığı – Qurana əsaslanarsa, sağlamlığını saxlayar – ümməti bütövlükdə bunu bərpa etməlidir.

Çünki bu dünyagörüşü ümmətə mənəvi güc verir, onun mədəni imkanlarını üzə çıxarır.

Ümmət gənclərini təkcə dini savadsızlıqdan deyil, həm də maddi imkansızlıqdan qorumalı, halal çərçivədə onların ehtiyaclarını təmin etməlidir. Etməlidir ki, siyasi-ideoloji maraqları olanlar, dini ticarətə çevirənlər kasıblıq və maddi imkansızlıq kartını açıb, işsiz gənclərə "kömək" və pul təklif etməsinlər, halal yolla fiziki istəklərini ödəyə bilməyən yeniyetmələri haram bataqlığına çəkməsinlər.

Hökumət dairələri bu cür işlərlə məşğul olan qurumlar, cəmiyyət və təşkilatlarla mübarizə aparmalı, ümmətin övladlarına zərər vurmalarının qarşısını almalıdırlar. Bunun üçün xalqın ehtiyac içində olan hissəsinə təlim-tərbiyə, ictimai-iqtisadi baxımdan yardım edilməli, fürsət gözləyən "qurdlar"a imkan verilməməlidir.

Qənaətbəxş inandırma yolu ilə, şüurlu surətdə, əsaslı şəkildə dəvət fəaliyyətinə, səmimi dialoq qurumlarına gəlincə, islam bundan çəkinmir. Din, əqidə və dəlil "bazar"ında islam başqalarının "əmtəə"lərindən narahat deyildir. Çünki dialoq, ünsiyyət, dəlil və izaha əsaslanan dəvət başqa şeydir, aldatmaq və tovlamaq tam başqa şey!

# DÖNÜKLÜK – ETİQAD VƏ HÜQUQ MƏSƏLƏSİ KİMİ

Digər bir problemə toxunaq. Söhbət ağıllı və həddi-buluğa çatmış kəsin öz inancını seçmə hüququ ilə psixoloji-hüquqi qəyyumluq və ya başqaları üzərində dini-ideoloji hökmranlıq arasında fərq qoymaqdan gedir.

İslam müsəlman kişilərə Kitab əhlindən olan qadınlarla evlənmək icazəsi verib. Çünki müsəlman kişinin Kitab əhlindən olan qadın üzərində dini-hüquqi təsiri və hökmranlığı mövcuddur. İslam baxımından müsəlman kişi həmin qadının inancına, etiqad azadlığına görə ehtiyat etmir. Ona əmr olunub ki, Kitab əhlindən olan həyat yoldaşının dininə, etiqad azadlığına hörmətlə yanaşsın. Müsəlman ər onun dinindəki peyğəmbərlərə, əqidəsinin başlanğıc formasının müqəddəsliyinə iman gətirmişdir. Keçmiş səmavi peyğəmbərliyə əsaslanmaq baxımından həyat yoldaşının dini və əqidəsi islamla ziddiyyət əmələ gətirmir[1]. Elə isə ərin üzərinə düşən vəzifə həyat yolda-

---

[1] İslama görə, əvvəllər nazil edilmiş dinlər təhrif olunub. Odur ki həmin dinlərin mətnlərini nazil olduğu şəkildə qəbul etmək mümkün deyildir. Həmçinin hər bir din öz xalqına göndərilib. Tədqiqatçılar da bunu təsdiqləyirlər. İslamın insanları çağırdığı şeyin mahiyyətində Allahın təkliyi və dünyada yaxşı işlər görmək dayanır: "İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır" (əl-Bəyyinə, 7); "De: "Rəbbim yalnız aşkar və gizli alçaq işləri (zina etmək, lüt gəzmək və s.), hər cür günahı, haqsız zülmü, Allahın haqqında heç bir dəlil nazil etmədiyi hər hansı bir şeyi Ona şərik qoşmağınızı və Allaha qarşı bilmədiyiniz şeyləri deməyinizi haram buyurmuşdur" (əl-Ə`raf, 33); "(Ya Rəsulum!) Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan)

şını ən gözəl şəkildə islama çağırmaq, onunla ən gözəl şəkildə dialoq aparmaqdır.

“Ey iman gətirənlər! Allaha və Peyğəmbərinə, Onun Öz Peyğəmbərinə endirdiyi Kitaba (Qurana) və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allaha, onun mələklərinə, kitablarına, peyğəmbərlərinə və axirət gününə inanmayan şəxs, şübhəsiz ki, (doğru yoldan) çox azmışdır” (ən-Nisa, 136);

“(Ey möminlər, yəhudi və xaçpərəstlərin sizi öz dinlərinə dəvət etmələrinə cavab olaraq) belə deyin: “Biz Allaha, bizə nazil olana (Qurana), İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladına (əl-əsbat) göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən (bütün) peyğəmbərlərə verilən şeylərə (möcüzələrə) inanmışıq. Onlardan heç birini digərindən ayırmırıq. Biz ancaq Allaha boyun əyən müsəlmanlarıq!” (əl-Bəqərə, 136);

“Onların ardınca Məryəm oğlu İsanı özündən qabaqkı Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içində haqq yolu və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən, müttəqilər üçün doğru yol və nəsihət olan İncili verdik” (əl-Maidə, 46);

“Allahı və peyğəmbərlərini inkar edənlər, Allahı peyğəmbərlərindən ayırmaq istəyənlər. “Biz peyğəmbərlərdən bəzisinə inanır, bəzilərinə isə inanmırıq”, - deyənlər və bunun (iman ilə küfr) arasında bir yol (məzhəb) tapmaq istəyənlər - Bütün

---

bir kəlməyə tərəf gəlin! ( O kəlmə budur: ) “Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!” Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: “İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq (Allaha təslim olanlarıq)!” (Ali-İmran, 64).

bunlar, həqiqətən, kafirdirlər. Biz (axirətdə) kafirlərdən ötrü alçaldıcı əzab hazırlamışıq!" (ən-Nisa, 150-151);

"(Ya Peyğəmbər!) Allah: "Dini doğru-dürüst tutun (qoruyub saxlayın), onda ayrılığa düşməyin!" – deyə Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya, və İsaya tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi..." (əş-Şura, 13);

"Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə (Qurana) inanmış və möminlər də iman gətirmişlər. (Onların) hamısı Allaha, Onun mələklərinə, kitablarına və (bütün) peyğəmbərlərinə iman gətirərək dedilər: "Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq. (Allahın hökmlərini) eşitdik (anladıq) və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla, (axırda) Sənin dərgahına (hüzuruna) qayıdacağıq!" (əl-Bəqərə, 285);

"İman gətirənlərdən (müsəlmanlardan), musavi (yəhudi), isəvi (xristian) və sabiilərdən Allaha, axirət gününə (sədaqətlə) inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. (Qiyamət günü) onların nə bir qorxusu olar, nə də onlar bir qəm-qüssə görərlər" (əl-Bəqərə, 62);

"Sonra onların ardınca (Musa, İlyas, Davud, Süleyman, Yunis və başqa) peyğəmbərlərimizi yolladıq. (Onlardan sonra) Məryəm oğlu İsanı göndərib ona İncil verdik. Onun ardınca gedənlərin qəlblərində bir-birinə şəfqət, mərhəmət oyatdıq..." (əl-Hədid, 27);

"And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik. Biz onlara birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil etdik

ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər...” (əl-Hədid, 25);

“(Ya Rəsulum!) Biz səni (təkcə öz qövmünə deyil) bütün insanlara (möminlərə Cənnətlə) müjdə verən, (kafirləri isə Cəhənnəm əzabı ilə) qorxudan bir peyğəmbər olaraq göndərdik. Lakin insanların (Məkkə müşriklərinin) əksəriyyəti (bunu) bilməz!” (Səba, 28);

“Biz səndən əvvəl də peyğəmbərlər göndərmişdik. Onlardan kimisi haqqında sənə xəbər vermiş, kimisi haqqında xəbər verməmişik. Heç bir peyğəmbər Allahın izni olmadan bir möcüzə gətirə bilməz. Allahın (kafirlərə əzab verilməsi barədə) əmri gəldikdə (peyğəmbərlər və onları təkzib edənlər arasında) ədalətlə hökm olunar. Yalan danışanlar (batil söyləyənlər) elə oradaca ziyana uğrayarlar” (əl-Mumin, 78);

“Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!” (əl-Hicr, 9).

İslama görə, qeyri-müsəlman və ya Kitab əhlindən olan kişi müsəlman qadınla evlənə bilməz. Çünki o, islama, peyğəmbərliyinin müqəddəsliyinə iman etməmişdir. Bu səbəbdən əksər hallarda dini, mənəvi və hüquqi baxımdan müsəlman qadın üçün ehtiyat edilir. Qeyri-müsəlman ərin müsəlman qadın və övladları üzərində hökmranlığı vardır. Madam ki qeyri-müsəlman ərin uşaqlar üzərində, onların inanclarının formalaşması üzərində hüquqi-mənəvi qəyyumluğu var, deməli, övladlarını islamı inkar etmək, peyğəmbərinin müqəddəsliyini danmaq üzrə tərbiyə edəcəkdir.

İctimai əmin-amanlığı müdafiə edən, ailəni dağıdıb, sosial-dini ədavət yarada biləcək münaqişələri aradan qaldırmağa can atan islam bildirir ki, doğulduqda müsəlman olmağı elan edilən və ya sonradan islamı qəbul edən şəxslər ailəsi, həyat yoldaşı və uşaqlarının maddi-mənəvi cəhətdən qayğısına qalmalı, böyüklük (qəyyumluq) borcunu yerinə yetirməlidir. Bununla yanaşı, o, ailə üzvlərindən öz dolanışıqlarını müstəqil təmin edə bilməyən qadınlara, az yaşlılara himayədarlıq etməlidir. Bunun üçün o, anasına qarşı ədalətli davranmağı öyrənməlidir. İslamdan dönən, islam peyğəmbərinin müqəddəsliyini təsdiqləməyən ər mömin qadınla qurduğu ailə şərtlərini pozmuş sayılır. Mömin qadın isə bir ana olaraq, uşağına həddi-buluğa çatanadək (15 yaş) baxmağa daha layiqdir. Həmçinin, anasının dinində – islamda qalmağı uşağın xeyrinədir və bu, onunla anası arasındakı mənəvi bağı təmin edir. Təbii ki, bu zaman uşağın atası ilə münasibətləri davam etməlidir. Uşağın müsəlman olaraq qalmağı onun həm müsəlman olan anasının, həm də xristian (yəhudi) atasının dini mənsubiyyətinə hörmət göstərməsi deməkdir. Çünki islam nəinki bu dinlərə və peyğəmbərlərinə, həm də bütün mədəni əqidələrə, o cümlədən atəşpərəstliyə də ehtiramla yanaşır. Beləliklə, islam əqidəsi uşağa həm anasının dininə ehtiram göstərməyi, həm də atasının inancına, iman etdiyi peyğəmbərlərə yuxarıdan aşağı baxmamağı öyrədir.

Təbii ki, uşaq həddi-buluğa çatdığında istədiyi dini seçə bilər. Bu onun din seçmə haqqıdır və islam bu hüququ hər kəs üçün tanıyır:

"Dində heç bir məcburiyyət yoxdur";

"(Ya rəsulum!) İnsanları mömin olmağa sənmi məcbur edəcəksən?!";

"İstəyən inansın, istəyən də inkar etsin!"

Bu cür dini-hüquqi fərqləndirmə cəmiyyətdə sosial-dini stabillik yaradacaqdır. Belə cəmiyyətdə hər kəsin inanc seçmə hüququna ehtiram göstəriləcək, xəstə və mənfur niyyətli insanların İslam coğrafiyasında müxtəlif qruplar arasında fitnə-fəsad toxumu səpmək cəhdlərinin qarşısı alınacaqdır.

## MÜSƏLMAN AZLIQLAR (DİASPORA) VƏ DİNLƏRİN MÜXTƏLİFLİYİ

Qeyri-müsəlman ölkələrdə, xüsusən Qərbdə müsəlman azlıqlar əsasən mühacirlərdən, eləcə də islamı qəbul etmiş yerli sakinlərdən ibarətdir.

Müsəlmanların bu ölkələrdəki vəziyyəti islam ölkələrindəkindən fərqlidir. Bunun səbəbi Qərb ölkələrinin əhalisidir, xoşagəlməz tarixi təcrübədir, bu coğrafiyadakı dinin təhrifə uğrayıb mifoloji hal almağıdır, kilsələrin zənginliyi və fəaliyyət sərbəstliyinə baxmayaraq, xristianlığın sosial və mənəvi həyata təsir göstərə bilməməyidir.

Bu səbəbdən Avropa Birliyinin konstitusiya layihəsində Vatikanın tələbinə baxmayaraq, dinə işarə edilməyib, onun avropalıların mədəniyyətinə təsiri göstərilməyib. Bu ona görədir ki, Avropa xalqları, ümumi götürdükdə, dindar deyillər. Düzdür, onlar aqnostikdirlər, yəni fitrən başa düşürlər ki, bu kainatın fövqündə böyük güc vardır; amma dinləri formal və mifoloji olduğundan bu problemə qənaətbəxş cavab tapa bilmirlər.

Avropalılar ateist deyillər, lakin dindarlıqdan da uzaqdırlar. Onlar dini bir kənara atıblar, ölümdən sonrakı həyatı dərk etmirlər; onlar həyatın mənasını müvəqqəti maddi konkretlikdə görürlər. Dinin mənası, qeyb aləmi və axirət, insanının nə üçün yaradılması və taleyi – bütün bu məsələləri Avropada dərk edə bilmirlər. Bunları başa düşmək üçün qənaətbəxş vasitəyə də sahib deyillər. Onlar aqnostikdirlər. Amerikanın şimalında, şəhərlərində, şərqi və qərbindəki meqapolislərdə insanların həyat tərzi, fəaliyyəti və maraqları dinə münasibətdə heç də fərqli deyildir.

Dinə etinasızlıq həmin ölkələrdə müsəlman – qeyri-müsəlman münasibətlərinə təsirsiz ötüşmür. Bu ölkələrdə bir çox insan, ələlxüsus qadınlar islamı qəbul edirlər.

Həmin ölkələrdə belə bir problem yaranıb: əri müəyyən səbəblərə görə dinində qalan, özü isə sonradan müsəlman olan qadın nə etməlidir? Boşanmalıdırmı? Belə qadınların uşaqları varsa və boşanma baş verərsə, həm qadının, həm də uşaqların bundan əziyyət çəkməsi labüddür; ailə dağılır, qadın ərindən məhrum olur, atalıq qayğısı əldən çıxır və sair.

Bu cür qeyri-müsəlman cəmiyyətlərdə belə problem mövcuddur. Çünki müsəlman olmayanların əksəriyyəti həyat tərzlərində dinə əhəmiyyət vermirlər. Və onları həyat yoldaşlarının və ya uşaqlarının istədikləri dini qəbul etmələri ciddi şəkildə narahat etmir.

Bu kimi vəziyyətlərdə görürük ki, qadın əksər hallarda həyat yoldaşının ona və ya uşaqlarına psixoloji təsirindən qorxmur; o, atanın öz uşaqlarına yaxşı baxmayacağından, arvadının müsəlman olmağına, uşaqlarını müsəlman kimi böyüdəcəyinə qar-

şı çıxacağından ehtiyat da etmir. Bu məqamda qadınla kişinin fərqi budur ki, həmin ölkələrdə islam qəbul edən şəxs ətrafdakı əksər insanlar kimi deyildir. O (islamı qəbul etmiş qadın – ***mütərcim***), dininin göstərişlərinə əməl edir və buna ciddi yanaşır. Çünki islam həmin qadına fərqli həyat tərzi aşılayır.

Belə hallarda nə etmək lazımdır? Qadın haqlı olaraq soruşur: Mən islamı qəbul etmişəm. Ərim ailəsinin qayğısına qalan birisidir. Və mən dinim üçün, uşaqlarım üçün ondan ehtiyatlanmıram. Əgər boşanma tələb etsəm, mənim və uşaqlarımın taleyi necə olacaq?! Bir ana olaraq, övladlarımla zərər çəkə bilərik. Onu da ümid edirəm ki, birgə yaşasaq, o da islamı qəbul edə bilər[1].

İslam ana və uşaqlarını ailədaxili münaqişələrdən qorumaq istəyir. Lakin yuxarıda söz edilən vəziyyətdə ana və övladları zərər görmürlər. Odur ki faydanı təmin edib zərəri uzaqlaşdırmaq baxımından belə vəziyyətlərdə boşanmamaq daha münasibdir. Çünki boşanmaq açıq şəkildə fayda gətirmir, bəlkə də nəticəsi ağır olur[2].

---

[1] Belə hallara həmin ölkələrdə tez-tez rast gəlmək mümkündür. Çünki islamda ailə institutunun möhkəmliyi imkan verir ki, atalar, övladlar ananın təsiri ilə müsəlmanlığı qəbul etsinlər.

[2] Yeri gəlmişkən, tərbiyədə tənəzzül və məsuliyyətsizlik probleminə toxunmaq istəyirik. Səbəb budur ki, valideynlər tərbiyə işini düzgün qurmur, əsas diqqəti maddi qazanca, istehlaka yönəldirlər. Ümmətin əxlaqi dəyərlərinin qalası sayılan, sosial həmrəyliyi əks etdirən məsələlərə əcaib şəkildə hücum çəkilir. Söhbət ailədən, qadından, ailədaxili əxlaqdan, qadının analığından gedir. Görürük ki, əvvəllər olmadığı qədər boşanma hallarının sayı artıb.

Ailə, valideynlik, müsəlman qadın mövzularını uzun-uzadı araşdırmaq niyyətində deyilik. Bu haqda "Müsəlmanın iradə və mənəviyyat böhranı"

adlı kitabımızda söz açmışıq. Allah qoysa, ailə və valideynlik mövzusunda ayrıca kitab yazmağı planlaşdırırıq. Lakin burada ona işarə etmək istəyirik ki, ailə institutunun tənəzzülünün qarşısını almaq üçün dini-hüquqi tədbirlərə ehtiyac var. Gənclərin çoxu qadına və uşaqlara dəyəcək zərəri nəzərə almadan boşanmaya üz tuturlar.

Hüquq orqanları hər boşanma tələbini dövlət qeydiyyatına almamalıdır. Əgər boşanma nikah işləri üzrə hakimin hüzurunda baş verərsə, təsdiqlənməli, əlaqədar tərəfə çatdırılmalıdır. Bu özlüyündə imkan yaradır ki, boşanmaq qərarına gələnlər yenidən götür-qoy etsinlər, düşünsünlər, məsləhətləşsinlər. Nikah işləri üzrə hakim də tərəflərə nəsihət etməli, onları barışdırmağa çalışmalıdır. Həmçinin bu prosedur qadın və uşaqların hüquqlarını müəyyən edir, ərinin söylədiyi və sonradan dandığı "talaq" sözünə görə qadının işini çətinə salmır. Çünki bəzi ərlərin etinasız yanaşdıqları bu məsələdən qadınlar əziyyət çəkirlər.

Bu mövzuda yeni söz söyləmək fikrimiz yoxdur. "Talaq" sözü özlüyündə müqəddəs deyil. Bu söz, əgər boşama əzmkarlığı olarsa, məna kəsb edir. İslam ailələrin qorunmasına can atır. Həmçinin sadəcə "talaq" demək boşanmanın baş verməsi mənasına gəlmir. Hətta ər bu sözü qəzəblənərək deyərsə, vəziyyət dəyişmir. Qayda budur ki, hər dəfə deyilən talaq bir dəfə olsun. İlk dəfə ("talaq" dedikdə) boşanmadan imtina mümkündür. Bununla da üç ay ərzində qadının istəyini soruşmadan boşanmanı ləğv etmək olur. Lakin "talaq" sözü şüurlu surətdə, məqsədyönlü deyilərsə, ikinci boşanma baş verir. Qadının ərinə qayıtması üçün nikah müqaviləsi və mehr lazım gəlir.

Üçüncü dəfə "talaq" sözü işlədilərsə, tam boşanma baş verir. Beləliklə, üç ayrı vaxtlarda "talaq" demək boşanmanı labüd edir.

Həzrəti Ömərin xəlifəliyi dövründə bəziləri "talaq" sözünü üç dəfə deyərdilər (hər bir halda bu bir talaq sayılır). Bundan qəzəblənən Həzrəti Ömər onlara deyərdi: "Madam ki siz işi tezləşdirmək istəyirsiniz, mən sizi boşadacağam!" Bu ağıllarını başlarına yığsınlar deyə onları tərbiyə etmək məqsədi daşıyırdı.

Alimlər əsas qaydadan çıxış edərək ailə institutunu qorumaq məqsədilə fitva vermişlər ki, ərin istənilən mənada talaq deməsi bir dəfə talaq sayılır.

Bu mövzuda fikirlər müxtəlifdir. Lakin bir şey aydındır ki, Qərbdəki müsəlman azlıqların problemləri İslam ölkələrindəkindən fərqlənir. Şəriətin məqsədlərini həyata keçirib müsəlmanların mənafeyini təmin etmək üçün bütün münasib situasiyalar nəzərə alınmalıdır. Həmin ölkələrdə müsəlmanların vəziyyətini diqqətdən qaçırmaq olmaz. Bu da öz növbəsində zəruri edir ki, onların yaşadıqları şərait, vəziyyətləri yaxşıca öyrənilsin.

Əgər qadın müsəlman olduqdan sonra bunun ona və uşaqlarına zərəri olmazsa, boşanma tələb edib ailəsini dağıtmağı, uşaqlarını atasız qoymağı düzgün olmazdı. Əks halda, müsəlman qadın özü və uşaqlarının dinini qorumaq üçün boşana və uşaqlarına qəyyumluq tələb edə bilər. Çünki qadın özü və uşaqlarının dinini qorumalıdır; onun vicdan və etiqad azadlığı vardır. Və bu, onun övladları üçün yaxşıdır; onlarda valideynlərinə müsbət baxış formalaşdırır.

Bir daha deyirik ki, həmin ölkələrə xas bu vəziyyət islam ölkələrindəki vəziyyətdən fərqlənir. Çünki islam ölkələrində dönüklük əqidəvi-psixoloji mövqeni əks etdirir. Ağıla batmır ki, qəsdən mürtəd olmuş şəxs dinə əhəmiyyət vermədiyindən bu cür hərəkət edib. Bu səbəbdən onun islamdan imtina edib, islamın müqəddəsliyini danan, peyğəmbərini təkzib edən başqa bir dini seçməsi (Biz bu haqda kitabımızın əvvəlində ətraflı danışmışdıq) müsəlman qadın və övladlarının vəziyyətini Qərb ölkələrindəki vəziyyətdən fərqləndirir.

Xatırladaq ki, qəyyumluq – burada hər şeydən əvvəl dini qəyyumluq nəzərdə tutulur – uşaqların xeyrinədir. Hər iki valideyni ilə (biri ilə deyil!) ən yaxşı əlaqəni islam əsasında tərbiyə

təmin edir. Bu, uşaqların mənafeyi üçündür. Çünki bunda hər iki valideynə ehtiram vardır. Valideynlər bu məsələni (uşağın valideyn himayəsindən məhrum qalmağını – ***mütərcim***) yaxşı başa düşməli, bunun uşağın psixikasına dağıdıcı təsirini dərk etməlidirlər. Elə etmək lazımdır ki, uşaq valideynlərdən birinin dininə yuxarıdan aşağı baxmasın; əksinə, onu həvəsləndirmək lazımdır ki, valideynlərinə hörmət etsin, islamın əmr buyurduğu kimi, atasının dininə də ehtiramla yanaşsın.

"Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın (yoldaş və) dosta, (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara), əlinizin altında olana (sahib olduğunuz qul və kənizlərə) yaxşılıq edin!.." (ən-Nisa, 36);

"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: "Uf!" belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!" (əl-İsra, 23);

"Biz insana ata-anasına yaxşılıq etməyi (onlarla gözəl davranmağı) tövsiyə etdik. (Ey insan!) Əgər (valideynlərin) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, onlara itaət etmə. Hamınız (qiyamət günü) Mənim hüzuruma qayıdacaqsınız. Mən də (dünyada) nə etdiklərinizi sizə bir-bir xəbər verəcəyəm!" (əl-Ənkəbut, 8);

"Əgər (ata-anan) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, (bu işdə) onlara itaət etmə. (Qalan) dünya işlərində onlarla gözəl keçin (onlara itaət et). Tövbə edib

Mənə tərəf dönənlərin (islamı qəbul edənlərin) yolunu tut. Sonra (qiyamət günü) Mənim hüzuruma qayıdacaqsınız. Mən də (dünyada) nə etdiklərinizi (bir-bir) sizə xəbər verəcəyəm!" (Loğman, 15);

"(Ya Rəsulum!) Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! ( O kəlmə budur: ) "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq (Allaha təslim olanlarıq)!" (Ali-İmran, 64);

"Sonra əhdlərini pozduqları üçün onları lənətlədik və ürəklərini sərtləşdirdik. Onlar sözlərin (Tövratda peyğəmbərin vəsfinə dair kəlmələrin və bəzi başqa ayələrin) yerlərini dəyişib təhrif edir və xəbərdar edildikləri şeylərin bir hissəsini (Muhəmməd peyğəmbərə iman gətirməyi) unudurlar. Onların az bir qismi müstəsna olmaqla, sən onlardan həmişə xəyanət görəcəksən. Bununla belə, onları bağışla, günahlarından keç. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevər!" (əl-Maidə, 13);

"Onlar Allahı qoyub alimlərini və rahiblərini, Məryəm oğlu Məsihi özlərinə tanrılar (rəblər) qəbul etdilər. Halbuki onlar ancaq bir olan Allaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa heç bir tanrı yoxdur. Allah pak və müqəddəsdir. Ona şərik qoşulan bütlərlə heç bir əlaqəsi yoxdur! (Allah müşriklərin Ona şərik qoşduqları bütlərdən uzaqdır!)" (ət-Tövbə, 31);

"Biz Kitabı (Quranı) sənə yalnız (müşriklərə) ixtilafda olduqları (tövhid, qiyamət, qəza-qədər və s. bu kimi) məsələləri

izah etmək və möminlərə bir hidayət və mərhəmət olsun deyə nazil etdik!" (ən-Nəhl, 64);

"(Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mübahisə et. Həqiqətən, Rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır!" (ən-Nəhl, 125);

"(Xalqı) Allaha tərəf çağıran, yaxşı iş görən və: "Mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl danışan kim ola bilər?!" (Fussilət, 33).

Əqidəvi-hüquqi münasibətlərdə tarazlığı qorumaq, şəriətin məqsədlərini (dini, canı, namusu qorumaq, fayda gətirib zərəri dəf etmək) başa düşmək, fərdi və kollektiv müstəvidə ən az zərərli olanı seçmək, beləliklə, fərdin və cəmiyyətin əmin-amanlığını təmin etmək, dini-məzhəb çəkişmələrinin, fitnə-fəsadın qarşısını almaq – bütün bunları cəmiyyətin başbilənləri, alimləri, səlahiyyət sahibləri ciddi surətdə nəzərə alıb həyata keçirməlidirlər. Məsələni diktə məsələsinə çevirmək, real vəziyyəti nəzərə almayan fitvalarla tənzimləmək olmaz! Problemə kompleks və hərtərəfli baxmaq lazımdır.

Yalnız öz mənafeyini düşünən, başqaların maraqlarını nəzərə almayan qonşusuna yaxşıca qulaqburması verən Molla Nəsrəddinin əhvalatı bu məsələdə ibrətamizdir.

*Bir dəfə Molla Nəsrəddin qonşusunun məclisinə gedir və ona deyir:*
*- Ay qonşu, pisik evimin divarına işəyib. Nə edim?*
*Qonşusu deyir:*

*- Divarı dağıt, yeddi dəfə tik.*

*Molla Nəsrəddin bir az susub dillənir:*

*- Amma, ay qonşu, divar sənin evinlə evimin arasındakı divardır.*

*Qonşu da bir anlığa karıxır. Sonra Molla Nəsrəddinə baxıb deyir:*

*- Ay qonşu, bir az su bəsdir (divarı yuyarsan qurtarar gedər).*

Biz indiyədək bilmirik: qonşusu müdrik Molla Nəsrəddinin ona vermək istədiyi dərsdən ibrət çıxarıb ya yox?!

Azlıqlar haqda bu deyilənləri gərək həmin azlıqların liderləri, məsləhət şuraları, fitva komissiyaları nəzərə alsınlar. Çünki dini qorumada, müsəlmanların, ölkələri və dəvət işinin mənafeyini təmin etmədə bu vacibdir.

# MÜNDƏRİCAT

Tərcüməçinin ön sözü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3
Dönüklüyün cəzası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 16
Dönüklük – etiqad və hüquq məsələsi kimi . . . . . . . . . . . . . . . . . 41
Müsəlman azlıqlar (diaspora) və dinlərin müxtəlifliyi . . . . . . . . . . 46

*Əbdülhəmid əbu Süleyman*

# Əqidə və hüquqi baxımdan islamda dönüklüyün cəzası

**Bədii və texniki tərtibat:**
Həsən Həsənov

"İdrak" İctimai Birliyi
AZ1100, Bakı ş., Bakı Universiteti MTK,
M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

Yığılmağa verilib: 21.07.14. Çapa imzalanıb: 10.08.14
Çap vərəqi: 3,5. Tiraj: 2000 nüsxə. Sifariş №:

CBS POLYGRAPHIC PRODUCTION
mətbəəsində çap olunub



*Əbdülhəmid Əhməd əbu Süleyman*

- Əbdülhəmid Əhməd əbu Süleyman 1936-cı ildə Məkkə şəhərində anadan olmuşdur.
- Orta məktəbi bitirdikdən sonra, 1959-cu ildə Qahirə universitetinin İqtisadiyyat fakültəsinə qəbul olunmuşdur.
- 1973-cü ildə ABŞ-ın Pensilvaniya universitetində "Beynəlxalq münasibətlər" ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir.
- Bir müddət Səudiyyə Ərəbistanında, Kral Məhəmməd ibn Səud adına Mədinə İslam Universitetində fakültə dekanı vəzifəsində işləmişdir.
- 1988-1999-cu illərdə Malayziya Beynəlxalq İslam Universitetinin rektoru olmuşdur.
- 1999-cu ildən ABŞ-dakı Beynəlxalq İslam Fikri İnstitutunun direktorudur.
- ABŞ və Kanada Müsəlman Tələbələri İttifaqının yaradıcılarından biridir.
- Professor Əbdülhəmid Əhməd əbu Süleyman sosiologiya, hüquq və islam düşüncəsində novatorluq üzrə çoxsaylı kitabların, monoqrafiya və məqalələrin müəllifidir.

Əsərləri:
- İslam iqtisadiyyatı nəzəriyyəsi: fəlsəfi və müasir metodlar
- Müsəlmanın düşüncə böhranı
- İslam maarifçiliyi: layihələr və nailiyyətlər
- İslam düşüncəsində metod problemi
- Müsəlman ailənin biblioqrafik məlumat kitabı
- Müsəlmanın iradə və mənəviyyat böhranı
- Müsəlman dünyasında ali təhsil sisteminin canlandırılması
- İki şəriət prizmasından insana baxış və s.

İDRAK